**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ**

**YÜKSƏK TƏHSİL İNSTİTUTU**

Məmmədova Səkinə Seymur
Məcidova Ayan Fərhad
Hənifəyeva Gültəkin Adil
Eyvazov Murad Faiq
Quliyev Fərid Rövşən

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINA 2026-CI İLƏDƏK KÖÇÜRÜLƏCƏK ƏHALİNİN BACARIQLARININ İNKİŞAFI VƏ YENİ İŞ YERLƏRİNİN YARADILMASI

mövzusunda

**MAGİSTİRLİK DİSSERTASİYASI**

**Elmi rəhbər: i.f.d. Elnur Elman oğlu Ələkbərov**

**Bakı 2024**

## MÜNDƏRİCAT


**GİRİŞ ........................................................................................................ 3**

**I FƏSİL. POST KONFLİKT ƏRAZİLƏRDƏ ƏHALİNİN MƏSKUNLAŞMASININ VƏ MƏŞĞULLUĞUN TƏŞKİLİ MƏSƏLƏLƏRİ ..... 6**

**1.1. Post - konflikt ərazilərdə əhalinin yerləşdirilməsi təcrübələri** ........................................ 6

**1.2. Post - konflikt ərazilərdə əhalinin məşğulluğunun təşkili təcrübələri** ................................ 9

**II FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ SOSİAL-İQTİSADİ MƏNZƏRƏSİ ƏMƏK BAZARI EHTİYACLARININ QİYMƏTLƏNDİRİLMƏSİ ........................................ 14**

**2.1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi vəziyyətinin təhlili** .................. 14

**2.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əmək bazarı ehtiyaclarının müəyyənləşdirilməsi** ........................................ 21

**2.3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına 2026-cı ilədək köçürüləcək əhalinin bacarıqlarının artırılması istiqamətləri** ........................................ 28

**III FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA BACARIQLARIN İNKİŞAFI VƏ İŞ YERLƏRİNİN YARADILMASI ........................................ 35**

**3.1. Bacarıqların inkişafı proqramlarının formalaşdırılması** ........................................ 35

**3.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məşğulluğun təmin olunmasında peşə hazırlığının rolu** ........................................ 38

**3.3. Qarabağ və Şərqi Zəngəzurda yeni iş yerlərinin yaradılması istiqamətində təkliflərin verilməsi** ........................................ 44

**NƏTİCƏ ........................................ 48**

**İstifadə edilmiş ədəbiyyatlar ........................................ 49**

# GİRİŞ

Məlum olduğu kimi ölkə başçısının müvafiq Sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” qəbul olunmuş və proqramda digər məsələlərlə yanaşı əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri də öz əksini tapmışdır. 2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına mərhələli şəkildə ümumilikdə 34500 ailənin və ya 140 min şəxsin köçürülməsi nəzərdə tutulur ki, bu da öz növbəsində həmin iqtisadi rayonlarda yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi kimi məsələləri aktuallaşdırır. Bu baxımdan seçilən tədqiqat mövzusu post-konflikt ərazilərdə əhalinin məskunlaşmasının və məşğulluğunun təşkili məsələləri ilə bağlı beynəlxalq təcrübələri araşdıracaq, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına 2026-cı ilədək köçürüləcək əhalinin məşğulluğunun təmin edilməsi, həmçinin bacarıqların inkişafı proqramlarınn formalaşdırılması istiqamətində təkliflərin verilməsi baxımından önəmli rol oynayacaqdır.

Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası ilə bağlı digər əhəmiyyətli aspektlərə də diqqət yetirilməlidir. Məsələn, məcburi köçkünlərin geri qayıdışını asanlaşdırmaq üçün mənzil, təhsil, səhiyyə və sosial xidmətlərin keyfiyyətinin artırılması və onların yeni şəraitə uyğunlaşmasının təmin edilməsi eyni zamanda məşğulluq imkanlarının yaradılması və bacarıqların artırılması istiqamətində peşə hazırlığına cəlb edilməsi vacibdir. Eyni zamanda, regionda iqtisadi fəaliyyətlərin canlandırılması və yeni iş yerlərinin yaradılması üçün, xüsusilə dövlət sektorunda əmək tələbi müəyyən olunmalı, kiçik və orta sahibkarlığın inkişafı dəstəklənməlidir.

Bu mövzu üzrə tədqiqat beynəlxalq təcrübələrdən öyrənərək yerli şəraitə uyğun effektiv strategiyaların işlənib hazırlanmasına kömək edəcək. Bununla da, post-konflikt ərazilərdə davamlı və inklüziv iqtisadi inkişafın təmin edilməsi və əhalinin rifahının artırılması mümkün olacaq.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış proqramı, eyni zamanda, ölkənin iqtisadi və sosial inteqrasiyasına da mühüm töhfələr verəcəkdir. Proqramın uğurla həyata keçirilməsi, yalnız Qarabağ və Şərqi Zəngəzurda deyil, bütün ölkə üzrə iqtisadi inkişafın sürətlənməsinə və yeni imkanların yaranmasına

səbəb olacaqdır. Beləliklə, işlənilmiş tədqiqat qeyd olunan məsələlərin həlli baxımından əhəmiyyətli hesab oluna bilər.

**Mövzunun öyrənilmə vəziyyəti.** Post-konflikt ərazilərdə əhalinin məskunlaşması və bundan irələ gələn sosial-iqtisadi məsələlərin həll edilməsi Azərbaycan üçün yeni yanaşma olsa da, USAID, BMT kimi mötəbər qurumlar (BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı) və əcnəbi müəlliflər post-konflikt ərazilərdə yerləşdirmə, yenidənqurma və digər bu kimi aspektlərə yönələn tədqiqatlar aparmışlar. Belə ki, Cernea, M. M. (1998, 1999), Reddy, I., Rodrigo, M. L., McDowell, C., Clark, L. (1987), Chambers, R., Simon, A., Muggah, R. və başqaları tərəfindən araşdırılmışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın başlıca məqsədini post konflikt ərazilərdə əhalinin məskunlaşmasının və məşğulluğunun təşkili ilə bağlı mütərəqqi təcrübələri öyrənmək, həmçinin işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsaslanaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına 2026-cı ilədək köçürüləcək əhalinin bacarıqlarının inkişafı və yerli iş yerlərinin aradılmasına dair təhlil aparmaq və tövsiyələr verməkdən ibarətdir. Qeyd olunan məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Post-konflikt ərazilərdə əhalinin məskunlaşmasının və məşğulluğun təşkili təcrübələrinin öyrənilməsi;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi vəziyyətinin təhlil edilməsi;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əmək bazarı ehtiyaclarının müəyyənləşdirilməsi;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına 2026-cı ilədək köçürüləcək əhalinin bacarıqlarının artırılması istiqamətlərinin müəyyən edilməsi;
- Qarabağ və Şərqi Zəngəzurda yeni iş yerlərinin yaradılması istiqamətində təkliflərin verilməsi;

**Tədqiqatın obyektini** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əhalinin məşğulluq məsələləri təşkil edir.

**Tədqiqat işinin predmetini** isə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əhalinin bacarıqlarının artırılması və iş yerlərinin yaradılması imkanları və yolları təşkil edir.

**Tədqiqatın metodları.** Dissertasiya işində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin (ARDSK), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) rəsmi statistik məlumatları, aidiyyəti təşkilatların hesabatları və rəsmi internet portallarından, həmçinin mövzu ilə əlaqəli digər mənbələrdən əldə edilmiş materiallardan istifadə etməklə müqayisəli və analitik təhlil, sintez, analiz, qrafik təsvir, funksional təhlil kimi tədqiqat üsullarından istifadə olunmuşdur.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyini aşağıdakılar təşkil edir:

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının mövcud statistik məlumatarı əsasında ekstrapolyasiya üsulu ilə 2026-ci ilədək köçürüləcək əhalinin sayına müvafiq olaraq səhiyyə və təhsil (məktəbəqədər və əyani ümumi təhsil səviyyəsində) sektorunda işçi qüvvəsinə tələb müəyyən edilmişdir.
- Təhlillər əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilmiş ərazilərində işçi qüvvəsinə tələbin istiqamətləri müəyyən edilmişdir.
- İşğaldan azad edilmiş ərazilərə köçürüləcək işçi qüvvəsinin bacarıqlarının artırılması məqsədilə bacarıqların artırılması proqramı formalaşdırılmışdır.

**Tədqiqat işinin strukturu və quruluşu.** Tədqiqat işi giriş, 3 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. POST KONFLİKT ƏRAZİLƏRDƏ ƏHALİNİN MƏSKUNLAŞMASININ VƏ MƏŞĞULLUĞUN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

## 1.1. Post - konflikt ərazilərdə əhalinin yerləşdirilməsi təcrübələri

Münaqişədən sonrakı ərazilərdə əhalinin köçürülməsi müxtəlif sosial, iqtisadi və siyasi məsələləri əhatə edən çoxşaxəli və mürəkkəb prosesdir. Effektiv köçürülmə strategiyaları davamlı inkişafı, sosial birliyi və uzunmüddətli sülhü təmin etmək üçün vacibdir. Bu ədəbiyyat icmalı qlobal təcrübədən əsas mövzuları, çağırışları və uğurlu yanaşmaları vurğulayaraq, münaqişədən sonrakı ərazilərdə əhalinin köçürülməsi təcrübəsinin təhlilini təmin etmək məqsədi daşıyır.

Köçürmə (yenidən yerləşdirmə) nəzəriyyələri fərdlərin və ya icmaların yeni yerə köçürülməsi prosesini başa düşmək və təhlil etmək üçün istifadə olunan müxtəlif konsepsiya və çərçivələrə istinad edir. Bu nəzəriyyələr çox vaxt köçürmə səylərinin uğuruna və ya çətinliklərinə təsir edən sosial, iqtisadi, siyasi və ekoloji aspektlər kimi amilləri nəzərə alır. Köçürülmənin bəzi əsas nəzəriyyələrinə aşağıdakılar daxildir:

İtələmə və çəkmə (Push-Pull Theory): Bu nəzəriyyə fərdlərin münaqişə, yoxsulluq və ya ətraf mühitin deqradasiyası kimi faktorlara görə öz ilkin yerlərindən sıxışdırıldığını (itələmə faktorları) və iqtisadi imkanlar və ya daha yaxşı yaşayış şəraiti kimi amillərlə yeni bir yerə doğru çəkildiyini (çəkmə faktorları) göstərir.

Konservasiya edilən köçürmə nəzəriyyəsi: Bu nəzəriyyə qorunan ərazilərin yaradılması və ya biomüxtəlifliyin qorunması kimi mühafizə məqsədləri üçün icmaların məcburi köçürülməsinə diqqət yetirir. O, belə köçürülmənin həm ətraf mühitə, həm də təsirə məruz qalmış icmalara təsirlərini araşdırır.

Yaşam yanaşması: Bu nəzəriyyə köçürülmüş əhalinin dolanışıq vasitələrinin və rifahının nəzərə alınmasının vacibliyini vurğulayır və köçürülmə səylərinin davamlı dolanışıq vasitələrini dəstəkləməsini və təsirə məruz qalanların ümumi həyat keyfiyyətini yaxşılaşdırmasını təmin etmək məqsədi daşıyır (Black, R., & Koser, K., 1999).

Münaqişədən sonra məskunlaşma müxtəlif formalarda ola bilər ki, bunların da hər birinin özünəməxsus problemləri və mülahizələri var.

Spontan (kortəbii) qayıdış: Bu, məcburi köçkünlərin öz evlərinə və ya doğma yerlərinə köməksiz qayıtmasını ifadə edir. Çox vaxt geri qayıtmaq istəyi güclü olsa da, kortəbii qayıdış etibarsızlıq, təməl xidmətlərin olmaması, torpaq və əmlakla bağlı mübahisələr kimi risklərlə dolu ola bilər (Karen Jacobsen, 2001).

Mütəşəkkil qayıdış: Bu, tez-tez hökumətlər və ya beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən köçkünlərin planlı və yardımlı qayıdışını əhatə edir. Mütəşəkkil qayıdış proqramları adətən geri qayıdanların təhlükəsizliyini və ləyaqətini, habelə onların əsas xidmətlərə və dolanışıq vasitələrinə çıxışını təmin etmək məqsədi daşıyır. Hal-hazırda Azərbaycan nümunəsində bu qayıdış prosesini bariz görmək olar. Dövlət tərəfindən işğaldan azad edilmiş ərazilərdə geniş bərpa və quruculuq işlərinin aparılması və əhalinin tədricən və planlı şəkildə köçürülməsi, eyni zamanda köçürülən əhalinin məşğulluğunun təmin edilməsi və bütün zəruri infrastruktura əlçatanlığın təşkil edilməsi mütəşəkkil qayıdışın ən yaxşı nümunələrindən hesab oluna bilər.

Üçüncü ölkələrə köçürmə: Bəzi hallarda, davam edən münaqişə və ya təqiblər səbəbindən öz evlərinə və ya mənşə yerlərinə qayıda bilməyən köçkünlər üçün üçüncü ölkəyə köçürülmə yeganə uyğun variant ola bilər. Köçürülmə proqramları adətən ciddi seçim prosesini əhatə edir və məqsədi qaçqınları yeni ölkədə müdafiə və inteqrasiya imkanları ilə təmin etməkdir (UNHCR, 2018).

Yerli inteqrasiya: Bu, köçkünlərin sığındıqları icmalara inteqrasiyasını nəzərdə tutur. Yerli inteqrasiya qayıdış mümkün olmadıqda və ya arzu edilmədiyi durumlarda əlverişli seçim ola bilər, lakin köçkünlərin ev sahibi icmaya uğurlu inteqrasiyasını təmin etmək üçün diqqətli planlaşdırma və dəstək tələb olunur.

Ədəbiyyatlarda post-konflikt yenidən yerləşdirmənin bir sıra problemlərlə üzləşdiyi də qeyd edilmişdir ki, bu problemləri aşağıdakı kimi sadalamaq olar:

Təhlükəsizlik. Davam edən təhlükələr, minalar və partlamamış hərbi sursatlar geri qayıdanlar üçün əhəmiyyətli risklər yarada bilər (Muggah, R., 2008).

Torpaq və mülkiyyət məsələləri. Torpaq və mülkiyyət hüquqları ilə bağlı mübahisələr geri qayıtmaq və reinteqrasiya üçün əsas maneə ola bilər (UN-Habitat, 2005).

Əsas xidmətlərə çıxış. Səhiyyə, təhsil, su və kanalizasiya kimi əsas xidmətlərə çıxışın olmaması köçkünlərin qayıtmasına və reinteqrasiyasına mane ola bilər (Toole, M. J., & Waldman, R. J., 1997).
Yaşayış vasitələri. Məhdud dolanışıq imkanları geri qayıdanlar arasında yoxsulluğa və asılılığa səbəb ola bilər (Long, K., 2004).
Psixososial dəstək. Travma və psixoloji sıxıntı geri qayıdanların rifahına təsir edə bilər və onların cəmiyyətə reinteqrasiyasına maneələrdən sayıla bilər. (Summerfield, 1999)
Barışıq. Geri qayıdanlarla ev sahibi icmalar arasında gərginlik və inamsızlıq barışıq və sosial birlik prosesinə mane ola bilər (Summerfield, D., 1999).

Münaqişədən sonrakı məskunlaşmanın nəticələri məzmun, qəbul edilmiş yanaşma və göstərilən dəstək səviyyəsi də daxil olmaqla bir sıra amillərdən asılı olaraq geniş şəkildə dəyişə bilər. Uğurlu köçürmə sülh quruculuğuna, barışığa və davamlı inkişafa töhfə verir. Bununla belə, zəif planlaşdırılan və ya həyata keçirilən köçürmə proqramları mövcud gərginliyi və şikayətləri daha da gücləndirə bilər ki, bu da münaqişənin və qeyri-sabitliyin yenidən yaranmasına gətirib çıxara bilər.
1994-cü il soyqırımından sonra Ruanda 2 milyondan çox qaçqın üçün genişmiqyaslı qayıdış və reinteqrasiya proqramı həyata keçirdi. Proqram ciddi çətinliklərlə üzləşsə də, son nəticədə ölkədə sülhün və sabitliyin bərpasına öz töhfəsini verdi (Clark, P., 2010). 1995-ci ildə Bosniya və Herseqovinada müharibəyə son qoyan Dayton Sülh Müqaviləsi məcburi köçkünlərin öz evlərinə qayıtmaq hüququnu təmin edirdi (Andreas, P., 2006). Bununla belə, geri qayıtma prosesinə etibarsızlıq, əmlak mübahisələri və etnik gərginlik mane oldu. 2001-ci ildə ABŞ-ın işğalından sonra Əfqanıstan qaçqınların və məcburi köçkünlərin əhəmiyyətli dərəcədə geri qayıtmasını yaşadı. Bununla belə, davam edən münaqişə və etibarsızlıq geri qayıtma və reinteqrasiya üçün problemlər yaratmağa davam edir (Monsutti, A., 2008).
Cənub-Şərqi Asiya, yenidən yerləşdirmə ilə bağlı müxtəlif təcrübələr yaşayıb. Minaların təmizlənməsi və kənd təsərrüfatının inkişafının yenidən yerləşdirilmiş əhalini dəstəklədiyi Kamboca kimi ölkələrdə nəzərəçarpacaq uğurlar əldə edilmişdir.
Post-konflikt ərazilərə əhalinin köçürülməsi zamanı təhlükəsiz mühitin təmin edilməsi uğurlu köçürmə üçün əsasdır. Bunun üçün milli hökümətlər, beynəlxalq təşkilatlar və

yerli icmalar arasında təhlükəsizlik problemlərini həll etmək və etimad yaratmaq üçün əlaqələndirilmiş səylər lazımdır.

Münaqişədən sonrakı ərazilərdə əhalinin köçürülməsi hərtərəfli və əlaqələndirilmiş səylər tələb edən mürəkkəb və çətin prosesdir. Uğurlu köçürmə praktikalarına təhlükəsizlik problemlərinin həlli, iqtisadi imkanların təşviqi, sosial xidmətlərin gücləndirilməsi və sosial birliyin gücləndirilməsi daxildir. Qlobal təcrübələrdən öyrənmək eyni zamanda vahid və iştirakçı yanaşmaları tətbiq etməklə, münaqişədən sonrakı regionlarda davamlı inkişaf və uzunmüddətli sülh perspektivləri artırıla bilərlər. Bu paraqrafda mövcud ədəbiyyatlar təhlil edilməklə post-konflikt ərazilərə əhalinin yerləşdirilməsi təcrübələri nəzərdən keçirilməyə çalışılmışdır. Növbəti paraqrafda post-konflikt ərazilərə köçürülmə zamanı əhalinin məşğulluğunun təmin edilməsinin ən önəmli amillərdən biri olmasını nəzərə alaraq əhalinin məşğulluğunun təşkili təcrübələrinə nəzər yetirilmişdir.

## 1.2. Post - konflikt ərazilərdə əhalinin məşğulluğunun təşkili təcrübələri

Post-konflikt vəziyyətlərdə məşğulluq qısamüddətli sabitliyə, reinteqrasiyaya, sosial-iqtisadi inkişafa və davamlı sülhə nail olmaqda əsas töhfəverici amil hesab olunur. Əhalinin məşğulluğu post-konflikt ərazilərin bərpası və inkişafında həlledici rol oynayır. Post-konflikt siyasətlərin əsas etibarilə üç məqsədi var: iqtisadiyyatın yenidən qurulması, məcburi köçkünlərin reinteqrasiyası və münaqişənin əsas səbəblərinin aradan qaldırılması. Məşğulluğun qeyd edilənlərin hər üçünə də təsir göstərdiyi uzun müddətdir qəbul edilməkdədir (Stewart, F., 2015). Təcrübədə münaqişədən sonrakı səylərin böyük hissəsi yuxarıda qeyd olunan üç məqsədin hər birinə ayrıca yönəldiyi görünür. Məşğulluğa dair siyasətlər, ümumiyyətlə, münaqişədən sonrakı siyasətlərin başqa bir fərqli cəhətini təşkil edir.

İşsizliyin konfliktə səbəb olan kritik amil olduğuna dair ümumi fikir var. Məşğulluğun konfliktin qurbanı olması və buna görə də post konflikt ərazilərdə iş yerlərinin yaradılması prioritet olmalıdır. Bu, konfliktin təkrarlanma ehtimalını azaltmaq, həmçinin gəlir və istehsalın yaradılması üçün edilir.

Kenneth W. Beasley post-konflikt cəmiyyətlərdə iş yeri yaratmanın sülhün qorunması baxımından əhəmiyyətini qeyd etmişdir (Beasley, Kenneth W., 2006; s. 1). Münaqişədən sonra iqtisadi artımı və inkişafı stimullaşdırmaq çox vacibdir. İqtisadi inkişaf və daimi iş yerlərinin yaradılması birlikdə baş verir. Bir tərəfdən yeni iş yerləri iqtisadi artımı stimullaşdırmağa kömək edir, digər tərəfdən, yalnız yenilənmiş, davamlı iqtisadi artım sabit, uzunmüddətli məşğulluğu və ev təsərrüfatlarının dolanışıq və rifahının davamlı yaxşılaşmasını təmin edən iqtisadi və sosial əsaslar yarada bilər (Beasley, Kenneth W., 2006).

İqtisadi ədəbiyyatlarda münaqişədən əziyyət çəkən ölkələrinmünaqişədən sonra məşğulluğun və əhalinin dolanışığının bərpasında mühüm problemlə üzləşmələri qeyd edilir. Görülən konkret tədbirlər məzmundan, münaqişənin şiddətindən və mövcud resurslardan asılı olaraq dəyişir. Bununla belə, bəzi ümumi yanaşmalar ədəabiyyatlarda aşağıdakı kimi qeyd edilir:

- Fövqəladə məşğulluq proqramları: Bu proqramlar dağıntıların təmizlənməsi, infrastrukturun bərpası kimi fəaliyyətlər vasitəsilə ən həssas əhali üçün qısamüddətli gəlir imkanları təmin edir.
- Bacarıqların öyrədilməsi və peşə təhsili: Bu təşəbbüslər fərdləri işçi qüvvəsinə yenidən daxil olmaq və iqtisadi bərpanı dəstəkləmək üçün satıla bilən bacarıqlarla təchiz edir. Onlar tez-tez tikinti, kənd təsərrüfatı və xidmətlər kimi əməyə yüksək tələbat olan sektorlara diqqət yetirirlər.
- Kiçik və orta sahibkarlığın (KOB) inkişafı: KOB-ların çoxalmasının dəstəklənməsi iş yerləri yarada və iqtisadi fəallığı stimullaşdıra bilər. Hökumətlər sahibkarlığı təşviq etmək üçün maliyyə stimulları, biznes təlimləri və bazara çıxış dəstəyi təklif edə bilər.
- Torpaq islahatı və mülkiyyətin bərpası: Torpaq mübahisələrinin həlli və mülkiyyət hüquqlarının bərpası iqtisadi sabitliyi təşviq edə və kənd təsərrüfatının dolanışıq vasitələri üçün imkanlar yarada bilər.
- Sosial müdafiə proqramları: pul transfertləri, ərzaq yardımı və sosial sığorta kimi bu proqramlar həssas əhali üçün təhlükəsizlik təmin edir və onlara münaqişənin iqtisadi nəticələrinin öhdəsindən gəlməyə kömək edir.

- Əmək bazarı institutlarının gücləndirilməsi: İş uyğunluğunu asanlaşdırmaq və layiqli iş şəraitini təşviq etmək üçün əmək bazarı məlumat sistemlərinin, məşğulluq xidmətlərinin və sosial dialoq mexanizmlərinin təkmilləşdirilməsini nəzərdə tutur.
- Gender bərabərsizliyinin aradan qaldırılması: Münaqişə çox vaxt qadınların məşğulluq imkanlarına qeyri-mütənasib şəkildə təsir edir. Məqsədli müdaxilələrə qadın sahibkarlığının dəstəklənməsi, uşaq baxımı xidmətlərinin göstərilməsi və iş yerində gender bərabərliyinin təşviqi daxil ola bilər.

Münaqişədən sonrakı ərazilərdə məşğulluq problemlərinin həlli istiqamətində qiymətləndirmələr Syerra-Leonedə məşğulluq siyasətlərinin yalnız məhdud təsirə malik olduğunu aşkara çıxarmışdır. Belə ki, donorlar və beynəlxalq təşkilatlar tərəfindən tətbiq olunan əsas təhsil və peşə təhsili proqramlarının çoxu gənclərin məşğulluğuna çox az birbaşa və görünəbilən təsir göstərmişdir (Peeters, P. et all., 2009).

Uqandada münaqişə sonrası iki dövrdə (1980-ci illərin ortalarında milli münaqişədən sonrakı dövr və şimaldakı münaqişəsinin sona çatdığı 2006-cı ildən sonrakı dövr) aşkar məşğulluq siyasəti olmuşdur. Birinci periodda iki qrup (ziddiyətli) siyasət formal məşğulluğa təsir göstərmişdir. Bir tərəfdən ordunun miqyaslı genişlənməsi, münaqişənin hər iki tərəfinin əsgərlərini uğurla birləşdirdi. Eyni zamanda 1993-cü ilə qədər əhatəli şəkildə xalqdan əsgər toplamağı da əhatə edirdi. Səfərbərliyin sona çatması və reinteqrasiya yalnız 1993-cü ildə kənd təsərrüfatı fəaliyyətlərinə fokuslanmaqla başlamışdır.

Məşğulluq proqramları nə Syerra-Leonedə, nə də Uqandada böyük həcmdə aşağı məhsuldarlıqlı işlərə və əksik məşğulluğa əsaslı təsir göstərə bilməsə də, Bosniya və Herseqovina və Kosova kimi daha inkişaf etmiş iqtisadiyyatlar üçün daha uyğun olmuşdur. Dünya Bankının məlumatına əsasən 2006-cı ildə Kosovada, münaqişənin bitməsindən təxminən 7 il sonra, ümumi işsizlik 44,6%, 15-24 yaşlı gənclər arasında işsizlik isə 76% təşkil edib. 2012-ci ildə işsizlik 35% gənclər arasında isə 53% olmuşdur. Kosovoda həmçinin məşğulluqda etnik balanssızlığa dair sübutlar var. Serblər və azlıq təşkil edən qruplar (Roma, Aşkali və Misirlilər) xüsusilə əlverişsiz

vəziyyətdədirlər. Məşğulluq probleminə yönəlmiş əsas proqram olan "Kosovo Gənclərinin Məşğulluğu Fəaliyyəti" öz səylərini təlim proqramlarına yönəltmişdir. Bu tədbirin əhatə dairəsi dar, qazandırılan bacarıqlara tələb zəif olmuşdur. İctimai işlər proqramları daha sərfəli olsa da, lakin yalnız kiçik bir azlığa şamil edilmişdir.

1994-cü il soyqırımından sonra Ruanda hərtərəfli milli məşğulluğun təşviqi proqramına başlamışdır. Bacarıqların inkişafı, sahibkarlığa dəstək, əmək bazarının tənzimlənməsi kimi proqramlar Ruandanın iqtisadi bərpasına və yoxsulluğun azaldılmasına əhəmiyyətli töhfə vermişdir (Dünya Bankı, 2019).

2002-ci ildə müstəqillik əldə etdikdən sonra Şərqi Timor yüksək işsizlik və ixtisaslı işçi çatışmazlığı ilə üzləşmişdir. Hökumət ictimai işlər proqramları, kiçik və orta biznesə dəstəyi özündə ehtiva edən Milli Məşğulluq Strategiyasını həyata keçirmişdir. Bu tədbirlər Timor-Lestedə məşğulluğun artırılmasına və yoxsulluğun azaldılmasına əhəmiyyətli dərəcədə kömək etmişdir.

Onilliklər boyu davam edən silahlı münaqişədən sonra Kolumbiya işsizliyi həll etmək və keçmiş döyüşçülər və köçkünlər üçün iqtisadi reinteqrasiyanı təşviq etmək üçün müxtəlif proqramlar həyata keçirmişdir. Bu proqramlara aşağıdakılar daxildir:

- Silahsızlaşdırma, Tərxisetmə və Reinteqrasiya Proqramları: Keçmiş döyüşçülərə peşə hazırlığı, işə yerləşdirmə yardımı və psixoloji dəstək verilməsi;
- Torpaqların bərpası və kəndlərin inkişafı: Köçkün icmalarına torpaqların qaytarılması üçün proqramların həyata keçirilməsi və iş yerləri yaradan kənd inkişaf layihələrinin dəstəklənməsi;
- Sülh quruculuğu təşəbbüsləri: Münaqişənin əsas səbəblərini həll etmək və sosial birliyi təşviq etmək üçün icma əsaslı sülhməramlı təşəbbüslərə sərmayə qoymaq.

Bütün bu səylər Kolumbiyada zorakılığın əhəmiyyətli dərəcədə azalmasına və məşğulluq imkanlarının artmasına kömək etmişdir (Dünya Bankı, 2019).

Liberiyada gənclər arasında yüksək işsizlik səviyyəsini aradan qaldırmaq üçün milli gənclərin məşğulluğu proqramı həyata keçirilmiş, Nepalda isə iş yerləri yaratmaq və iqtisadi artımı yüksəltmək üçün turizm və otelçilik sektorlarına sərmayə qoymuşdur. 1992-ci ildə başa çatan uzun vətəndaş müharibəsindən sonra Mozambik keçmiş döyüşçülər üçün demobilizasiya və reinteqrasiya proqramlarını həyata keçirmişdir.

Onlar həmçinin məşğulluq imkanlarını artırmaq üçün kənd təsərrüfatının inkişafına və kənd infrastrukturuna diqqət yetirmişdir (Dünya Bankı).

Beləliklə, post-konflikt situasiyalarda məşğulluq siyasəti faktiki məşğulluq vəziyyətini təhlil etməklə başlamalı və hansı növ məşğulluq siyasətinin qəbul edilməsi nəzərdən keçirilməlidir.

## II FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ SOSİAL-İQTİSADİ MƏNZƏRƏSİ ƏMƏK BAZARI EHTİYACLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

### 2.1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi vəziyyətinin təhlili

2021-ci ildə ölkə başçısının müvafiq Fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü təsdiq edildi. Fərmanda hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməsi vurğulanır, həmin ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiq olması, həmçinin əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılması zərurəti qeyd edilmişdir. Sözügedən Fərman ölkənin iqtisadi rayonlarının əvvəlki bölgüsünə yenidən baxılmasını təmin etmiş, nəticədə yeni Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması, eləcə də əvvəlki bölgüdə yer alan Yuxarı Qarabağ iqtisadi rayonunun Qarabağ iqtisadi rayonu adı ilə yenidən təşkil olunması reallaşmışdır.

Bu paraqrafda əsasən Dövlət Statistika Komitəsinin (DSK) məlumatları əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının mövcud vəziyyəti təhlil edilmişdir.

*Qarabağ iqtisadi rayonu.* Azərbaycanın 14 iqtisadi rayonundan biri olan Qarabağ iqtisadi rayonunun tərkibinə Ağcabədi, Ağdam, Ağdərə, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər inzibati rayonları və Xankəndi şəhəri daxildir. Sahəsi 7330 km$^2$ olan iqtisadi rayonun əhalisinin sayı 1 yanvar 2023-cü il vəziyyətinə 736,4 min nəfər təşkil etmişdir.

Qarabağın füsunkar təbiət gözəllikləri ilə yanaşı, zəngin yeraltı və yerüstü sərvətləri ilə də diqqəti cəlb edir. Bu resurslar regionun sənaye potensialını gücləndirməklə yanaşı, həm də ölkənin iqtisadiyyatına gələcək töhfəsi baxımından da

əhəmiyyət kəsb edir. İqtisadi rayonun resurs potensialını dörd əsas başlıq altında nəzərdən keçirmək olar. Bu istiqamətlər aşağıdakılardır:

Bol su ehtiyatları: Regiondakı zəngin su ehtiyatları kənd təsərrüfatı fəaliyyəti və sənaye istifadəsi üçün böyük potensial təklif edir.

Elektrik enerjisi istehsalı: Coğrafi quruluşu və su ehtiyatları sayəsində enerji istehsal potensialı regionda hidroelektrik stansiyalarının qurulması ilə qiymətləndirilə bilər.

Turizm imkanları: Təbii gözəllikləri və tarixi abidələri ilə Qarabağ turizm və rekreasiya fəaliyyətləri üçün cəlbedici bölgəyə çevrilə bilər.

Zəngin mineral ehtiyatlar: Azərbaycanın mineral su ehtiyatlarının 40%-i işğal olunmuş ərazilərdə olub. Mineral suların qablaşdırılmasıvə satışı, həm də ehtiyatlar üzərində sağlamlıq turizmi obyektlərinin yaradılması iqtisadi rayonun inkişafının digər bir mühüm istiqamətini təşkil edə bilər. Bölgədəki müxtəlif mineral ehtiyatları düzgün investisiyalarla istifadə edilərək iqtisadiyyata töhfə verə bilər (İki sahil, 20.08.2021).

Lakin Ermənistanın işğalı zamanı rayonun infrastrukturuna böyük ziyan dəyib, kənd təsərrüfatı torpaqları yararsız hala düşüb. Bu vəziyyət həm Azərbaycan iqtisadiyyatına, həm də dünya genofonduna milyardlarla manat ziyan vurub. İşğaldan əvvəl ölkənin Ümumi Daxili Məhsulunun (ÜDM) 24 faizi, üzüm istehsalının 41 faizi, kartof istehsalının 46 faizi, ət istehsalının 18 faizi, süd istehsalının 34 faizi bu rayonun payına düşürdü.

İşğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatı, sənaye, turizm sahələrində böyük potensial var. Xüsusilə üzümçülük, tütünçülük, pambıqçılıq, ipəkçilik, meyvə-tərəvəzçilik və heyvandarlıq kimi sahələrdə yüksək inkişaf potensialı var. Bölgənin təbii ehtiyatları və kənd təsərrüfatı potensialı iqtisadiyyatın bərpasını sürətləndirə bilər.

Aşağıdakı cədvəldə son 5 ildə Qarabağ iqtisadi rayonunda məhsul buraxılışı göstərilmişdir. 2023-cü ilin ilkin məlumatlarına əsasən iqtisadi rayonda məhsul buraxılışı 4,4 milyard manat təşkil etmişdir ki, bu da 2019-cu illə müqayisədə 22% daha çoxdur. Digər bir maraqlı məqam 2023-cü ildə Xankədi şəhəri üzrə məhsul buraxılışının olmasıdır. Ümumən inzibati rayonlar üzrə məhsul buraxılışında Füzuli,

Ağdam və Bərdə rayonlarının məhsul buraxılışı bütövlükdə iqtisadi rayonun məhsul buraxılışının 55%-ni təşkil edir.

**Cədvəl 2.1.1. Qarabağ iqtisadi rayonu üzrə iqtisadiyyatın əsas sahələrində məhsul buraxılışı, min manatla**

| | 2019 | 2020 | 2021 | 2022 | 2023* |
|---|---|---|---|---|---|
| **Qarabağ iqtisadi rayonu -cəmi** | **1568892,5** | **1548949,3** | **2810347,3** | **3594926,7** | **4382502,6** |
| Xankəndi şəhəri | … | … | … | … | 31,5 |
| Ağcabədi rayonu | 493118,3 | 469020,7 | 464415,7 | 539353,6 | 623015,2 |
| Ağdam rayonu | 172934,5 | 175435,9 | 405991,9 | 530243,8 | 813825,0 |
| Ağdərə rayonu | … | … | … | … | ... |
| Bərdə rayonu | 464987,4 | 471911,6 | 594233,7 | 654488,3 | 760883,8 |
| Füzuli rayonu | 138652,0 | 191923,1 | 774279,5 | 706436,2 | 822987,7 |
| Xocalı rayonu | 35597,1 | 28540,4 | 39707,6 | 21627,0 | 315778,0 |
| Xocavənd rayonu | 13861,7 | 14313,3 | 109248,8 | 193668,9 | 131933,1 |
| Şuşa rayonu | 14888,7 | 18554,1 | 240645,9 | 711777,0 | 629413,3 |
| Tərtər rayonu | 234852,8 | 179250,2 | 181824,2 | 237331,9 | 284635,0 |

Mənbə: DSK. * - ilkin məlumatlar

2022-ci ildə Qarabağ iqtisadi rayonunda 93 sənaye müəssisəsi sənaye məhsulunun 194 milyon manatlıq məhsul istehsal etmişdir ki, istehsal olunmuş məhsulun dəyərində qeyri-dövlət sektorunun payı 51,7% təşkil etmişdir. Bu son 5 ildə sənaye müəssisələrinin sayının 19 vahid, sənaye məhsul və xidmətlərinin həcminin isə artması, 68,2 milyon manat artması deməkdir.

**Cədvəl 2.1.2. Qarabağ iqtisadi rayonunda sənayenin əsas göstəriciləri**

| | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|
| Fəaliyyət göstərən sənaye müəssisələrinin sayı, vahid | 74 | 78 | 85 | 93 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, min manat | 125602,5 | 114680,1 | 194776,3 | 193829,0 |
| Sənaye məhsulunun dəyərində qeyri - dövlət sektorunun xüsusi çəkisi, faizlə | 49,9 | 46,6 | 66,3 | 51,7 |
| Hazır məhsul ehtiyatının ilin axırına qalığı, min manat | 8600,6 | 6059,0 | 9125,3 | 14357,5 |

Mənbə: DSK.

Aşağıdakı cədvəldə Qarabağ iqtisadi rayonunun 2019-2022-ci illəri əhatə edən tikinti statistikası verilmişdir. Cədvəldən görünür ki, iqtisadi rayonda bərpa quruculuq işlərinin başlandığı 2021-ci ildə istifadəyə verilmiş əsas fondların dəyəri kəskin artaraq 2022-ci ildə 162 milyon manat təşkil etmişdir. Bu dövrdə əsas kapitala investisiyalar təxminən 2 milyard manat olmuşdur ki, bunun da çox əhəmiyyətli hissəsi tikinti

quraşdırma işlərinin payına düşüb (cədvəl 2.1.3). İqtisadi rayonda sənayenin əsas kapitalına yönələn investisiyalar son 4 ildə 100 milyon manatdan çox artmışdır.

**Cədvəl 2.1.3. Qarabağ iqtisadi rayonunda tikintinin əsas göstəriciləri**

| | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|
| İstifadəyə verilmiş əsas fondlar, min manat | 181829,6 | 174387,0 | 352518,7 | 162131,5 |
| İstifadəyə verilmiş yaşayış evləri, ümumi sahə, kv.m. | 43726 | 68128 | 39204 | 29807,6 |
| Əsas kapitala yönəldilmiş investisiyalar, min manat | 278150,1 | 259565,6 | 1342032,7 | 1887243,3 |
| ondan: | | | | |
| tikinti - quraşdırma işlərinə | 242494,4 | 237268,2 | 1315956,4 | 1848213,7 |
| Qeyri-dövlət sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 25323,0 | 18425,0 | 71297,0 | 24689,4 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 29594,7 | 19730,7 | 12983,1 | 26582,7 |
| Sənaye üzrə əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 81522,9 | 26472,4 | 104256,9 | 181644,3 |
| Fəaliyyətdə olan tikinti müəssisələrinin sayı, vahid | 46 | 43 | 45 | 51 |
| Tikinti işlərinin dəyəri, min manat | 95009,2 | 73208,7 | 90833,0 | 68705,7 |
| Məhsul istehsalı, xidmət sahələri və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar, min manat: | | | | |
| Məhsul istehsalı sahələrinə | 131891,8 | 67404,3 | 359066,6 | 316204,9 |
| Xidmət sahələrinə | 115058,1 | 148328,6 | 970248,8 | 1561167,6 |
| Yaşayış evlərinin tikintisinə | 31200,2 | 43832,7 | 12717,3 | 9870,8 |

Mənbə: DSK.

*Şərqi Zəngəzur iqtisadi rayonu.* Şərqi Zəngəzur iqtisadi rayonuna Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, və Zəngilan rayonları daxildir. Rayonun əhalisinin sayı 2023-ci ilin 1 yanvar vəziyyətinə 300,4 min nəfər təşkil etmişdir (DSK, 2024). Şərqi Zəngəzur iqtisadi rayonu zəngin təbii sərvətlərə və əlverişli iqtisadi potensiala malikdir. İqtisadi rayonun ərazisində qızıl, mis, molibden, xromit, mərmər, əhəngdaşı, gil, tikinti materialları kimi qiymətli mineral ehtiyatlar mövcuddur. Rayonun meşə örtüyü tikinti materialı, mebel sənayesi və ekoloji tarazlığın qorunması baxımından əhəmiyyətlidir. Eyni zamanda məhsuldar torpaqlar kənd təsərrüfatının inkişafı üçün əlverişli şərait yaradır. İqlim və torpaq şəraiti taxılçılıq, üzümçülük, tütünçülük, meyvəçilik və heyvandarlığın inkişafı üçün əlverişlidir. Rayonun füsunkar təbiəti, tarixi abidələri və mineral suları turizm potensialını artırır. Coğrafi mövqeyin əlverişliliyi və gələcək illərdə Zəngəzur dəhlizinin inşası nəqliyyat və logistika sektorunun inkişafına təkan verəcək.

**Cədvəl 2.1.4. Şərqi Zəngəzur iqtisadi rayonu üzrə iqtisadiyyatın əsas sahələrində məhsul buraxılışı, min manatla**

| | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| **Şərqi Zəngəzur iqtisadi rayonu -cəmi** | **124122,1** | **133198,5** | **966264,4** | **2297703,3** | **3920853,7** |
| Cəbrayıl rayonu | 26283,7 | 29995,9 | 255637,7 | 630481,9 | 542467,7 |
| Kəlbəcər rayonu | 55762,5 | 49061,0 | 240492,3 | 453333,5 | 938305,5 |
| Qubadlı rayonu | 13626,3 | 12112,1 | 110520,8 | 179516,5 | 289738,6 |
| Laçın rayonu | 27326,0 | 40868,1 | 144151,2 | 313441,0 | 1558243,9 |
| Zəngilan rayonu | 1123,6 | 1161,4 | 215462,4 | 720930,4 | 592098,0 |

Mənbə: DSK

Şərqi Zəngəzur iqtisadi rayonu 2023-cü ildə 3.9 milyard manatlıq məhsul buraxılışı ilə ölkə iqtisadiyyatında artan əhəmiyyətini nümayiş etdirir. Bu rəqəm, ölkə üzrə məhsul buraxılışının 3.1%-ni təşkil edir və regionun iqtisadi potensialının tədricən reallaşdığını göstərir. İşğaldan azad edilmiş ərazilərdə məskunlaşmanın bərpası iqtisadi fəallığın canlanmasında həlledici rol oynayır. Zəngilan rayonu, məskunlaşma prosesinin başladığı ilk bölgə olaraq, 2021-ci ildən etibarən iqtisadi göstəricilərdə əhəmiyyətli artım nümayiş etdirir. Laçın rayonunda da əhalinin məskunlaşması ilə paralel olaraq məhsul buraxılışı artmış və 2023-cü ildə 1.6 milyard manata çatmışdır. Bu iki rayonun təcrübəsi, məskunlaşma siyasətinin iqtisadi inkişafa təkan vermə potensialını vurğulayır. Şərqi Zəngəzur iqtisadi rayonunun digər ərazilərində də məskunlaşma prosesinin sürətləndirilməsi, regionun iqtisadi potensialının daha da reallaşmasına və ölkə iqtisadiyyatına töhfəsinin artmasına zəmin yaradacaqdır.

**Cədvəl 2.1.5. Şərqi Zəngəzur iqtisadi rayonunda sənayenin əsas göstəriciləri**

| | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|
| Fəaliyyət göstərən sənaye müəssisələrinin sayı, vahid | 14 | 13 | 12 | 20 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, min manat | 2990,8 | 2543,0 | 7888,2 | 7134,8 |
| Sənaye məhsulunun dəyərində qeyri - dövlət sektorunun xüsusi çəkisi, faizlə | 10,5 | 6,0 | 61,5 | 49,1 |

Mənbə: DSK

2022-ci ildə Şərqi Zəngəzur iqtisadi rayonunda 20 sənaye müəssisəsi fəliyyət göstərmişdir ki, bu da 2021-ci illə müqayisədə sənaye müəssisələrinin sayının 8 vahid artmasıdır. Fəaliyyət göstərən sənaye müəssisələrində 7,1 milyon manatlıq sənaye məhsulu istehsal olunmuşdur. Cədvəldən görünür ki, sənaye məhsulunun dəyərində

qeyri dövlət sektorunun payı getdikcə artmaqdadır. Bunun da əsas səbəbi kimi, sözügedən inzibati rayonlara əhalinin mərhələlərlə köçürülməsi və burada özəl sektorun inkişafının genişlənməsidir.

**Cədvəl 2.1.6. Şərqi Zəngəzur iqtisadi rayonunda tikintinin əsas göstəriciləri**

| | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|
| İstifadəyə verilmiş əsas fondlar, min manat | 1520,4 | 14,8 | 18775,9 | 43156,7 |
| İstifadəyə verilmiş yaşayış evləri, | | | | |
| ümumi sahə, kv.m. | - | - | - | - |
| Əsas kapitala yönəldilmiş investisiyalar, min manat | 1031,8 | 21468,0 | 862228,9 | 2219425,8 |
| ondan: | | | | |
| tikinti - quraşdırma işlərinə | 853,9 | 21453,2 | 857744,3 | 2163682,4 |
| Qeyri-dövlət sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | - | - | 17500,0 | 23775,0 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 310,1 | - | - | 27420,6 |
| Sənaye üzrə əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 565,7 | - | 9773,3 | 47201,9 |
| Fəaliyyətdə olan tikinti müəssisələrinin sayı, vahid | 23 | 22 | 17 | 21 |
| Tikinti işlərinin dəyəri, min manat | 40183,5 | 34177,1 | 33377,5 | 30362,2 |
| Məhsul istehsalı, xidmət sahələri və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar, min manat: | | | | |
| Məhsul istehsalı sahələrinə | 875,8 | - | 9773,3 | 290719,7 |
| Xidmət sahələrinə | 156,0 | 21468,0 | 852425,9 | 1927488,1 |
| Yaşayış evlərinin tikintisinə | - | - | 29,7 | 1218,0 |

Mənbə: DSK

Şərqi Zəngəzur iqtisadi rayonuna əsas kapitala yönəldilən investisiyaların həcmi 2019-cu ildən etibarən artım nümayiş etdirir. Lakin 2022-ci ildə bu artım 18,775.9 milyon manatdan 43,156.7 milyon manata qədər kəskin şəkildə yüksəlmişdir (cədvəl 2.1.6). Bu artımın əsas səbəbi hökumətin regionun inkişafına yönəlmiş səyləridir.

Şərqi Zəngəzur iqtisadi rayonu yuxarıda da qeyd edildiyi kimi qızıl, mis, molibden kimi mühüm təbii sərvətlərə malikdir və bu sərvətlərin işlənməsi üçün əsas kapitala investisiyaların artırılması zəruridir. Əsas kapitala investisiyaların artması Şərqi Zəngəzur iqtisadi rayonu üçün müsbət tendensiyadır. Bu, regionun biznes və investorlar üçün daha cəlbedici hala gəldiyini göstərir. Bu da öz növbəsində regionda yeni iş yerlərinin açılmasına və iqtisadi artıma səbəb olacaqdır.

Ümumilikdə, Şərqi Zəngəzur iqtisadi rayonuna əsas kapitala yönəldilən investisiyaların artması regionun inkişafı üçün mühüm bir addımdır. Bu

investisiyaların davam etdirilməsi regionun iqtisadi potensialının daha da artmasına və ölkə iqtisadiyyatına töhfəsinin daha da böyüməsinə səbəb olacaqdır.

**Cədvəl 2.1.7. Şərqi Zəngəzur iqtisadi rayonunda əmək bazarı göstəriciləri**

| | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|
| İşçi qüvvəsinin sayı, nəfər | 135735 | 136949 | 139415 | 140832 |
| Məşğul əhalinin sayı, nəfər | 126458 | 123392 | 127657 | 129695 |
| Muzdlu işçilərin sayı, min nəfər | 22,3 | 22,5 | 22,2 | 21,6 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 414,1 | 500,3 | 482,7 | 583,0 |
| Yeni açılmış iş yerlərinin sayı | 323 | 230 | 199 | 223 |
| İşsiz əhalinin sayı, nəfər | 9277 | 13557 | 11758 | 11137 |
| Əhalinin işsizlik səviyyəsi, faiz | 6,8 | 9,9 | 8,4 | 7,9 |

Mənbə: DSK

Cədvəl 2.1.7, 2019-2022-ci illər arasında Şərqi Zəngəzur iqtisadi rayonunda əmək bazarının vəziyyətini əks etdirir. İqtisadi rayonun işçi qüvvəsi 2019-cu ildən 2022-ci ilə qədər 135,735 nəfərdən 140,832 nəfərə yüksəlmişdir. Bu artım əhalinin təbii artımı və regiona, xüsusilə Zəngilan və Laçın rayonlarına köç ilə əlaqələndirilə bilər. Məşğul əhali sayında 2020-ci ildə azalma müşahidə olunsa da (123,392 nəfər), 2022-ci ildə yenidən artaraq 129,695 nəfər təşkil etmişdir. İqtisadi rayonda muzdlu işçilərin sayı 2019-cu ildən 2022-ci ilə qədər azalma tendensiyası göstərir (22,3 min nəfərdən 21,6 min nəfərə). Nəzərə alsaq ki, rəsmi statistik məlumatlar 2022-ci ilə qədər olan dövrü əhatə edir, son dövrlərdə əhalinin köçü və məşğulluğun artması əmək bazarına dair göstəricilərin də iqtisadi rayon üzrə yüksəlməsinə səbəb olacaq.

İqtisadi rayonda 2019-cu ildə 414.1 manat olan orta əməkhaqqı, 2022-ci ildə 583 manata yüksəlmişdir.

Cədvəldəki məlumatlara əsasən, Şərqi Zəngəzur iqtisadi rayonunda əmək bazarında müəyyən dalğalanmalar olsa da, ümumilikdə müsbət dinamika müşahidə olunur.

Ümumiyyətlə qeyd edə bilərik ki, həm Qarabağ, həm də Şərqi Zəngəzur iqtisadi rayonlarına I Böyük Qayıdış proqramı çərçivəsində 2026-cı ilədək əhalinin mərhələlərə köçürülməsi bütün sosial-iqtisadi göstəricilərin yaxşılaşmasına gətirib çıxaracaq və hər iki iqtisadi rayon ölkə iqtisadiyyatının böyüməsində əvəzsiz rol oynayacaqdır.

## 2.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əmək bazarı ehtiyaclarının müəyyənləşdirilməsi

Bu bölmədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 2026-cı ilədək köçürüləcək əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində xüsusilə dövlət sektorunun təhsil və səhiyyə bölməsində əmək bazarının işçi qüvvəsinə tələbi müəyyən edilmişdir. Tədqiqat işinin əvvəlində artıq qeyd edildiyi kimi 2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına mərhələli şəkildə 34500 ailə və ya təxminən 140 min əhalinin köçürülməsi nəzərdə tutulur. Bu da öz növbəsində, on minlərlə iş yerlərinin yaradılmasını zəruri edir, eyni zamanda əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsi məsələlərini aktuallaşdırır.

Nəzərə alsaq ki, hal-hazırda işğaldan azad edilmiş ərazilərdə minlərlə sakin məskunlaşıb, həmçinin tikinti-quruculuq işləri sürətlə davam edir, o zaman deyə bilərik ki, bir neçə istiqamətdə aktiv işçi qüvvəsi tələb edən sahələr mövcuddur. Belə ki, məskunlaşan əhaliyə dövlət xidmətlərinin göstərilməsi (təhsil, səhiyyə, kommunal və s.), dövlət sektorunda çalaşınlara, davam edən infrastruktur layihələrinin tikintisi prosesində müvafiq ixtisaslı və ixtisassız peşə işçilərinə, eləcə də müxtəlif sektorlarda məhsul istehsalı və xidmətlərin göstərilməsi ilə bağlı özəl sektorun işçi qüvvəsinə tələbi mövcuddur. Qeyd olunanları nəzərə alaraq aktiv işçi qüvvəsi tələb edən sahələri aşağıdakı şəkildəki kimi müəyyən etmək olar.




**Şəkil 2.2.1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Aktiv işçi qüvvəsi tələb edən sahələr**

Məlum olduğu kimi, İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışa dair I Dövlət proqramında 2026-ci ilədək görüləcək işlər və atılacaq addımlarla bağlı tədbirlər planında nəzərdə tutulan çoxsaylı layihələr mövcuddur. Aşağıdakı cədvəldə ayrı ayrılıqda həm Qarabağ, həm də Şərqi Zəngəzur iqtisadi rayonlarında 2026-cı ilədək tikintisi nəzərdə tutulan obyektlər inzibati rayonlar üzrə qruplaşdırılmışdır.

**Cədvəl 2.2.1. Qarabağ iqtisadi rayonunda 2026-cı ilədək tikintisi nəzərdə tutulan obyektlər**

| İnzibati rayon | Tikintisi nəzərdə tutulan obyektlər |
|---|---|
| Şuşa | Şuşa RDYMH (həmçinin Daşaltı qəsəbəsində) tikintisi |
| | Çoxmənzilli binaların və fərdi evlərin inşası |
| | Şuşa şəhərinin baş planına əsasən küçə -yol şəbəkəsinin yenidən qurulması |
| | 960 şagird yerlik tam orta məktəbin və Şuşa Real məktəbinin tikintisi |
| | Şuşa rayonunda 1 ədəd tibb məntəqəsinin tikintisinin aparılması |

| | |
|---|---|
| | 90 çarpayılıq Şuşa RMX-nin tikintisinin aparılması |
| | Gigiyena və Epidemiologiya Mərkəzlərinin (GEM) tikintisi |
| | Təcili Tibbi Yardım Stansiyalarının (TTYS) tikintisi |
| | Şuşada Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin (MTEPAB) rayon şöbəsinin tikintisi |
| | Şuşa şəhərində DOST Mərkəzinin filiallarının yaradılması |
| | Əhmədbəyli – Füzuli – Şuşa avtomobil yolunun tikintisi |
| | 110 kV "Laçın Şəhər" YS – "Şuşa"- 32 km EVX-in tikintisi |
| | Şuşada 1 KOB evinin yaradılması |
| **Füzuli** | Füzuli RDYMH Horadiz şəhərində bölməsinin tikintisi |
| | İnzibati bina və şəhər meydanı qurulması |
| | Çoxmənzilli binaların və fərdi evlərin inşası |
| | Füzuli və Cəbrayıl rayonlarının ərazilərində ümumilikdə 185 ha yaşıllıq sahəsinin yaradılmasının təmin olunması |
| | Füzuli şəhərinin su təchizatı, kanalizasiya və yağış suları sisteminin və müvafiq şəbəkələrin tikintisi |
| | Füzuli şəhərində 960 şagird yerlik ümumtəhsil məktəbinin tikintisi |
| | 23 məktəbəqədər və ümumi təhsil müəssisəsinin tikintisi və bərpası |
| | 8 ədəd ailə sağlamlıq mərkəzinin tikintisinin aparılması |
| | 2 ədəd tibb məntəqəsinin tikintisinin aparılması |
| | 180 çarpayılıq Rayon Mərkəzi Xəstəxanasının tikintisinin aparılması |
| | Gigiyena və Epidemiologiya Mərkəzinin (GEM) tikintisi |
| | 50 çarpayılıq Vərəm əleyhinə xəstəxanaların tikintisi |
| | Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin tikintisinin aparılması |
| | Füzuli şəhərində universal idman zalının(üzgüçülük hovuzları, gimnastika, güləş, əl oyunları, açıq tipli idman meydançaları və digər idman təsisatları ilə birgə) tikintisi |
| | Heydər Əliyev Mərkəzi, “Art Mall” Kompleksi və mədəniyyət müəssisələrinin yaradılması |
| | DOST Mərkəzinin filiallarının yaradılması |
| | Füzuli AİLƏ Mərkəz kompleks binasının tikintisi |
| | Füzuli rayonunun işğaldan azad olunmuş ərazilərində meliorasiya və su təsərrüfatı kompleksinin bərpası |
| | Böyük Bəhmənli–Şuşa qaz kəmərinin və üzərində QPS-lər quraşdırmaqla qaz kəməri qollarının tikintisi (Füzuli, Şuşa, Hadrut) |
| | Füzulidə yeni Regional laboratoriyaların qurulması |
| **Xocalı** | 110 kV-luq Xocalı YS-nın tikintisi |
| **Ağdam** | Ağdam RDYMH tikintisi |
| | Çoxmənzilli binaların və fərdi evlərin inşası |
| | Meşə parkı və qəbiristanlıq qurulması |
| | İnzibati bina və şəhər meydanı qurulması |
| | Ağdam şəhərinin daxili yol şəbəkəsinin profilə gətirilməsi və müvafiq kommunikasiya şəbəkəsini çəkilməsi |
| | Ağdam şəhəri ərazisində yeni rəqəmsal idarəetmə və təlim tədris kompleksinin tikintisi |
| | Ağdam şəhəri ərazisində laboratoriya mərkəzinin, qaraj kompleksinin və transformator təmiri məntəqəsinin tikintisi |
| | Ağdam rayonu Xıdırlı (Çullu kəndi ilə birlikdə), Sarıcalı və Kəngərli kəndlərinin xarici elektrik təchizatının təmin olunması məqsədilə 35 kV-luq elektrik veriliş xəttinin çəkilməsi |

| | |
|---|---|
| | 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi və təhvil verilməsi |
| | Ağdam şəhərində uşaq bağçasının tikintisi |
| | Ağdamda tibb kollecinin tikintisinin aparılması |
| | Ağdam rayonunda ASM-lərin tikintisinin başa çatdırılması |
| | Ağdam rayonunda 1 ədəd tibb məntəqəsinin tikintisinin aparılması |
| | Ağdam rayonunda çoxprofilli modul tipli xəstəxananın tikintisi |
| | 210 çarpayılıq Ağdam RMX, 50 çarpayılıq 3 xəstəxana və 1 dispanserin tikintisi |
| | Ağdamda TTYS-lərin tikintisi |
| | Ağdamda Regional Perinatal Mərkəzin tikinti |
| | Ağdamda Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin (MTEPAB) tikintisi |
| | Ağdamda QİÇS-lə Mübarizə Mərkəzinin tikintisinin aparılması |
| | Ağdamda Mərkəzi Qan Bankının regional bölməsinin tikintisinin aparılması |
| | Ağdam rayonunda "İmarət" stadionunun tikintisi |
| | Ağdam rayonunda Pənah xanın imarət kompleksində bərpa-yenidənqurma işləri |
| | Ağdam rayonunda Heydər Əliyev Mərkəzi, "Art Mall" Kompleksi və mədəniyyət müəssisələrinin yaradılması |
| | Ağdam şəhərində DOST Mərkəzinin filiallarının yaradılması |
| | Bərdə – Ağdam dəmir yolu xəttinin tikintisi |
| | Ağdam Dəmir Yolu Stansiyasının tikintisi |
| **Xankəndi** | 110 kV-luq Xankəndi YS-nın tikintisi |
| | 110 kV "Şuşa" YS- "Xankəndi" YS -12 km EVX-in tikintisi |
| | 110 kV "Xankəndi" YS -"Xocalı" YS - 12 km EVX-in tikintisi |
| | 110 kV "Xankəndi" YS-"Xocavənd" YS -45 km EVX-in tikintisi |
| | Ağdam – Xankəndi qaz kəmərinin və üzərində QTM-lər quraşdırmaqla qaz kəməri qollarının tikintisi |
| **Xocavənd** | Xocavənd (Hadrut, Tuğ) RDYMH tikintisi |
| | Çoxmənzilli binaların və fərdi evlərin inşası |
| | 2 ədəd ailə sağlamlıq mərkəzinin tikintisinin aparılması |
| | 8 ədəd tibb məntəqəsinin tikintisinin aparılması |
| | Hadrut qəsəbəsində çoxprofilli modul tipli xəstəxananın tikintisi |
| | Hadrut qəsəbəsində Heydər Əliyev Mərkəzi və mədəniyyət müəssisələrinin yaradılması |
| | 110 kV-luq Xocavənd YS-in tikintisi |
| | "Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin Xocavənd bölməsinin tikintisi |
| | Xocavənddə KOB dostu ofisinin yaradılması |
| **Tərtər** | Tərtər RDYMH-nin (Suqovuşan, Qaradağlı və Talış) bölməsinin tikintisi |
| | Çoxmənzilli binaların və fərdi evlərin inşası |
| | Tərtər rayonu (Suqovuşan, Talış kəndləri üzrə daxili və xarici yol infrastrukturu) qurulması |
| | 2 tibb məntəqəsinin tikintisinin aparılması |
| | Suqovuşan qəsəbəsində Heydər Əliyev Mərkəzi və mədəniyyət müəssisələrinin yaradılması |
| | 110kV "Umudlu" YS-"Tərtər" SES - 7 km EVX-in tikintisi |
| | 110 kV "Goranboy" YS-"Tərtər" YS- 25 km EVX-in tikintisi |
| | 110kV "Tərtər" YS-"Ağdərə" 30 km EVX-in tikintisi |
| | 110kV "Tərtər" SES -"Ağdərə" YS - 20 km EVX-in tikintisi |
| | Tərtərçay Sol Sahil kanalının yenidən qurulması |
| | Suqovuşan su anbarı ətrafında Turizm İnformasiya Mərkəzinin tikintisi və parkı abadlaşdırılması işlərinin aparılması |

| | |
|---|---|
| | 2,4 MVt İstisu (Tərtər-1) KSES-in yenidən qurulması |
| | 12,8 MVt Boyaqlı (Tərtər-4) KSES-in yenidən qurulması |
| | 4,6 MVt "Tərtər-8" KSES-in tikintisi |
| | Tərtərçay üzərində avtomat hidroloji stansiyanın quraşdırılması |

Mənbə: Böyük Qayıdışa dair I DP və digər rəsmi mənbələr əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

**Cədvəl 2.2.2. Qarabağ iqtisadi rayonunda 2026-cı ilədək tikintisi nəzərdə tutulan obyektlər**

| İnzibati rayon | Tikintisi nəzərdə tutulan obyektlər |
|---|---|
| **Cəbrayıl** | Cəbrayıl şəhəri inzibati binasının layihələndirilməsi və tikintisi |
| | Yaşayış məhəlləsinin tikintisi (MİDA) |
| | Fərdi evlərinin inşası |
| | Cəbrayıl şəhərində orta məktəb binası |
| **Qubadlı** | Qubadlı şəhəri inzibati binasının layihələndirilməsi və tikintisi |
| | Rayon Mərkəzi Xəstəxanasının tikintisi |
| | 600 şagird yerlik tam orta məktəbin tikintisi |
| | yaşayış məhəlləsinin fərdi yaşayış evlərinin tikintisi |
| **Zəngilan** | Zəngilan şəhəri inzibati binasının layihələndirilməsi və tikintisi |
| | Rayon Mərkəzi Xəstəxanasının tikintisi |
| | yaşayış məhəllələrinin tikintisi (1, 2, 3, 4) |
| | fərdi evlərin inşası |
| | 160 yerlik uşaq bağçasının tikintisi |
| **Kəlbəcər** | Yaşayış məhəlləsinin tikintisi |
| | Fərdi evlərinin inşası |
| **Laçın** | yaşayış məhəlləsinin tikintisi |
| | Fərdi evlərin inşası |

Mənbə: Böyük Qayıdışa dair I DP və digər rəsmi mənbələr əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Cədvəl 2.2.1 və 2.2.2-dən göründüyü kimi, 2026-ci ilədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilmiş ərazilərində geniş tikinti və infrastruktur işləri görüləcək. Bu işlərin görülməsi çox sayda işçi qüvvəsinə tələb yaradacığını deməyə əsas verir. Bərpa-tikinti işlərinə tələb olunan işçi qüvvəsinin hamısı köçürüləcək əhalidən olmasa da müəyyən bir qisim işçi qüvvəsinə tələbin qarşılanması köçürüləcək əhalidən ola bilər.

Digər aktiv işçi qüvvəsi tələb edən sahə mədənçıxarma, emal sənayesi, turizm, sənaye parkları və aqroparklar kimi özəl sektor müəssisələridir. Hər iki istiqamət üzrə yetərli məlumat olmadığından həm tikinti-infrastruktur, həm də özəl sektorun işçi qüvvəsinə tələbini müəyyən etmək kifayət qədər çətindir. Lakin dövlət sektorunda xüsusilə, təhsil və səhiyyədə işçi qüvvəsinə tələbi müəyyən edilməyə çalışılmışdır.

Belə ki, məlum olduğu kimi, 2026-cı llədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına təxminən 140 min nəfər köçürüləcək. Müvafiq olaraq Qarabağ iqtisadi rayonuna 74679, Şərqi zəngəzur iqtisadi rayonuna isə 64981 nəfərin köçürülməsi nəzərdə tutulur.DSK-nın məlumatına əsasən 2022-ci ilin sonuna Qarabağ iqtisadi rayonunun əhalisin sayı 736,4 min nəfər təşkil edib. Həmçinin iqtisadi rayonda əhalinin hər 10 min nəfərinə həkimlərin sayı 10.7, orta tibb işçilərinin sayı isə 37.3 olub. Anoloji dövrdə Şərqi Zəngəzur iqtisadi rayonu üçün əhali sayı 300,4 min nəfər, əhalinin hər 10 min nəfərinə həkimlərin sayı 5.8, orta tibb işçilərinin sayı isə 19.2 təşkil edib. Bu məlumatları hər iki iqtisadi rayon üzrə 2026-cı ilədək köçürüləcək əhaliyə ekstrapolyasiya etsək Qarabağ iqtisadi rayonu üzrə 2026-ci ilədək tələb olunan həkimlərin sayının 80, orta tibb işçilərinin sayının isə 279 nəfər olacağı qənaətinə gəlmək olar. Şərqi Zəngəzur iqtisadi rayonu üçün isə analoji göstəricilər müvafiq olaraq 38 və 125 nəfər təşkil edəcək. Aşağıdakı şəkildə səhiyyədə işçi qüvvəsinə tələb sxematik olaraq göstərilmişdir.




**Şəkil 2.2.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında səhiyədə işçi qüvvəsinə tələb.**

Eyni yanaşma təhsil sahəsində, xüsusilə məktəbəqədər və əyani ümumi təhsil müəssisələrində işçi qüvvəsinə tələbin müəyyən edilməsinə imkan vermişdir (şəkil 2.2.2).

Şəkildən görünür ki, Qarabağ iqtisadi rayonunda 2022-ci ildə məktəbəqədər təhsil müəssiələrində 9152 uşaq olub ki, bu da iqtisadi rayon əhalisinin təxminən 1,2 faizini təşkil edib. Bu nisbəti  2026-cı ilədək iqtisad rayona tətbiq etsək deyə bilərik ki, köçürüləcək 74679 nəfər əhalinin 1,2%-i və ya 896 nəfəri məktəbəqədər təhsil müəssisələrində təhsil alan uşaqlar olacaq.

Ölkə üzrə məktəbəqədər təhsil müəssilərindəki uşağların sayı ilə oradakı pedoqoji heyətin say nisbəti orta hesabla 1 pedoqoji işçiyə 7 nəfər uşaq düşdüyünü deməyə əsas verir. Belə olan halda, nəzərə alsaq Qarabağ iqtisadi rayonunda 896 nəfər uşaq iqtisadi rayonda yerləşən məktəbəqədər təhsil müəssilərində təhsil alacaq, o zaman 1 pedoqoji işçiyə 7 nəfər uşaq hesabı ilə 896 uşağa 128 nəfər pedoqoji işçi tələb olunacaq. Şəkildən eyni zamanda Şərqi Zəngəzur iqtisadı rayonu üçün tələb olunan pedoqoji işçi sayını da görəmək olar. Belə ki, 390 uşağın məktəbəqədər təhsil müəssilərində təhsil alacağını nəzrə alsaq 56 pedoqoji işçiyə ehtiyac olacağını görmək olar.




**Şəkil 2.2.3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məktəbəqədər təhsildə işçi qüvvəsinə tələb**

Əyani ümumi təhsil müəssisələrində tələb olunacaq müəllim sayını müəyyən etmək üçün yuxarıda tətbiq edilən yanaşma tətbiq edilmişdir. Ölkə üzrə məktəbəqədər təhsildə 1 pedoqoji işçiyə 7 nəfər uşaq düşürsə, bu göstərici əyani

ümumi təhsildə bir qədər daha çoxdur. Belə ki, ölkə üzrə orta hesabla 1 müəllimə 12,3 nəfər şagir düşür. Hesablamalar şəkil 2.2.4-də daha ətraflı göstərilmişdir.

Əyani ümumi təhsil müəssisələrində işçi qüvvəsinə (müəllim) tələb

| • Qarabağ iqtisadi rayonu üzrə (2022) | | • Şərqi Zəngəzur iqtisadi rayonu üzrə (2022) | |
|---|---|---|---|
| ➢ Təhsilalanların sayı | 110939 nəfər | ➢ Təhsilalanların sayı | 55643 nəfər |
| ➢ İqtisadi rayonun əhalisinin | 15,1 %-i | ➢ İqtisadi rayonun əhalisinin | 18,5 %-i |
| ➢ Orta hesabla ölkə üzrə 1 müəllimə düşən şagird sayı* | 12,3 nəfər | ➢ Orta hesabla ölkə üzrə 1 müəllimə düşən şagird sayı sayı* | 12,3 nəfər |
| • 2026-cı ilədək iqtisadi rayonda ümumi təhsil müəssisələrində tələb olunacaq müəllim sayı | | • 2026-cı ilədək iqtisadi rayonda ümumi təhsil müəssisələrində tələb olunacaq müəllim sayı | |
| ➢ 2026-cı ilədək köçürüləcək əhalinin sayı | 74679 nəfər | ➢ 2026-cı ilədək köçürüləcək əhalinin sayı | 64981 nəfər |
| ➢ Ümumi təhsil müəssisələrində təhsil alacaq şagird sayı (köçürüləcək əhalinin təxminən 15,1 %-i) | 11250 nəfər | ➢ Ümumi təhsil müəssisələrində təhsil alacaq şagird sayı (köçürüləcək əhalinin təxminən 18,5%-i) | 12021 nəfər |
| ➢ Tələb olunan müəllim sayı | 915 nəfər | ➢ Tələb olunan müəllim sayı | 977 nəfər |

**Şəkil 2.2.4. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əyani ümumi təhsil müəssisələrində işçi qüvvəsinə tələb**

Beləliklə, bu bölmədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əmək bazarının işçi qüvvəsinə olan ehtiyacı müəyyən edilməyə çalışılmışdır. Məlumat çatışmazlığı, eyni zamanda mövcud məlumatlar əlyetərli olmadığından təhlillər yalnız statistik məlumatlar imkan verdiyi çərçivədə səhiyyə və təhsil sahə üzrə aparılmışdır.

## 2.3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına 2026-cı ilədək köçürüləcək əhalinin bacarıqlarının artırılması istiqamətləri

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilmiş ərazilərinə qayıdan, həmçinin 2026-ci ilədək qayıdacaq əhalinin məşğulluğunun təmin edilməsi Böyük Qayıdışa dair I dövlət proqramının əsas hədəf istiqmətlərindən biri kimi müəyyən edilmişdir. 2024-cü ilin aprel ayına olan rəsmi məlumatlara əsasən işğaldan azad edilmiş ərazilərə 6073 nəfər əhali köçürülmüşdür, ki onların da 66.6%-i əmək qabiliyyətli yaşda, 33.4%-i isə əmək qabiliyyətli yaşda olmayanlar təşkil etmişdir. Köçürülmüş əhalinin 1277 nəfərini ali, orta ixtisas və peşə təhsillilər təşkil etmişdir.




**Qrafik 2.3.1. İşğaldan azad edilmiş ərazilərə köçürülən əhalinin əmək qabiliyyətli yaş üzrə bölgüsü. Qeyd: Məlumatlar aprel ayındadək olan müddəti əhatə edir.**

Təbiidir ki, verilən bu məlumatlar vaxtaşırı yeilənməkdədir. Belə ki, cari ilin may ayında Şuşa şəhərinə və Laçın rayonunun Sus kəndinə də ilk köç karvanı yola salınmış və bununla da məskunlaşma təmin olunan yaşayış məntəqələri (buna qədər Ağalı kəndi, Taliş kəndi, Laçın şəhəri, Zabux kəndi, Füzuli şəhərinə köç həyata keçirilib) artmışdır. Əhalinin köçürülməsinin davam etməsi məlumatların tez-tez yenilənməsinə səbəb olur, eyni zamanda yeni məlumatların əldə edilməsi çətin olduğundan dissertasiyada mümkün mənbələrdən götürülmüş, lakin ən yeni olmayan məlumatlardan istifadə edilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) 2024-cü ilin I rübünə Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə məskunlaşan əhalinin 2797 nəfəri işçi qüvvəsi kateqoriyasına aiddir. Onlardan 1563 nəfərin məşğulluğu təmin edilmiş, 1234 nəfərin məşğulluğa cəlb olunması üçün iş aparılmaqdadır. Yaşayış məntəqələri üzrə daha ətraflı məlumat cədvəl 2.3.1-də verilmişdir.

**Cədvəl 2.3.1. Böyük Qayıdış proqramı çərçivəsində əhalinin məşğulluğu**

| | **Məskunlaşan əhali üzrə iqtisadi fəal əhali** | **Məşğulluğu təmin edilmiş şəxslər** | **Məşğulluğa cəlb olunmaq üçün iş aparılan şəxslər** |
|---|---|---|---|
| Zəngilan – Ağalı kəndi | 406 | 291 | 115 |
| Tərtər – Talış kəndi | 42 | 42 | 0 |
| Laçın şəhəri | 808 | 524 | 284 |
| Laçın – Zabux kəndi | 313 | 224 | 89 |
| Füzuli Şəhəri | 1228 | 482 | 746 |
| **Cəmi** | **2797** | **1563** | **1234** |

Mənbə: ƏƏSMN

Cədvəldən görünür ki, əhali köçürülmüş 5 yaşayış məntəqəsindən məşğulluğu təmin edilməmiş əhalinin daha çox hissəsi Füzuli şəhərinə köçürülənlərdir. Belə ki, Füzuli şəhərinə köçürülən və işçi qüvvəsi kateqoriyasına aid olan əhalinin 61%-i hələki işlə təmin edilməmişidir.

Ümumiyyətlə işğaldan azad edilmiş ərazilərə qayıdış prosesi aşağıda verilən sxemdə göstərilən kimi həyata keçirilir.




**Şəkil 2.3.1. Böyük Qayıdış prosesi**

Mənbə : ƏƏSMN məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Sxemdən göründüyü kimi, son nəticədə məskunlaşan şəxslərin dövlət və özəl sektorda mövcud olan bütün vakansiyalara uyğun işədüzəlmələri, habelə digər aktiv məşğulluq tədbirləri icra olunur. Böyük Qayıdış çərçivəsində məşğulluq tədbirləri 6 istiqamətdə həyata keçirilir (ƏƏSMN).

- *İşədüzəltmə fəaliyyəti.* bu istiqamət mövcud olan bütün vakansiyalar üzrə işədüzəltmə, həmçinin özəl şirkətlərin yaratdığı yeni vakansiyalar üzrə işədüzəltmə tədbirlərini əhatə edir;
- *Haqqı ödənilən ictimai işlərə cəlbetmə.* Bu zaman işçiyə aylıq 500 manat əmək haqqı ödənilir.
- *Özünüməşğulluq.* Məşğulluq imkanlarının qiymətləndirilməsi əsasında şəxsin özünüməşğulluğunun təşkili həyata keçirilir.
- *Əməkhaqqının birgə maliyyələşməsi.* Bu zaman özəl sektor tərəfindən yaradılan iş yerlərində müəyyən kateqoriya işçilərin (şəhid ailəsi, əlilliyi olan

və s.) əməkhaqlarının 50%-nin 1 ilədək birgə maliyyələşdirilməsi nəzərdə tutulur.

- *Peşə hazırlığı.* Özəl sektorun ehtiyaclarına uyğun olaraq qısamüddətli (3-6 ay) peşə hazırlığı kurslarının təşkil edilməsi.
- *Əmək yarmarkaları.* Mövcud və yeni yaradılacaq vakansiyalar əsasında işəgötürənlərə uyğun işçi qüvvəsinin seçilməsi və şəxslərə işədüzəlmə imkanlarının yaradılması. Qeyd edək ki, 2023-cü ilin noyabr ayında ilk dəfə olaraq Füzuli şəhərində əmək yarmarkası təşkil edilmişdir. Əmək yarmarkasında 200-ə yaxın vakansiya ilə 27 müəssisə iştirak etmişdir (Azərtag, 17.11.2023).

Göründüyü kimi ƏƏSMN tərəfindən Böyük Qayıdış çərçivəsində bir neçə istiqamətdə əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində işlər aparılır ki, bunardan ən vaciblərindən biri də peşə hazırlığının həyata keçirilməsi yolu ilə əhalinin peşə bacarıqlarının artırılmasıdır. Azərbaycan Respublikasının Baş nazirinin 2023-cü ilin dekabr ayında imzaladığı Sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində 2024-2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı" təsdiq edilmişdir ki, burada əsas məqsədlərdən biri məskunlaşan əhalinin peşə hazırlığının və tədrisinin təşkili məsələsidir. Məqsəd üzrə məskunlaşan əhalinin peşə hazırlığının və tədrisinin təşkili istiqamətində 10-dan artıq tədbir nəzərdə tutulmuşdur ki, bu tədbirlərin icrası nəticəsində işəgötürənlərin tələbatı əsasında 3000 şəxs üçün qısamüddətli təlim proqramlarının keçirilməsi; tələbat əsasında 12000 nəfərin peşə hazırlığına cəlb edilməsi; ehtiyaclar əsasında yeni peşə və kvalifikasiya standartlarının hazırlanması; tədris proqramlarının təşkil edilməsi və s. reallaşdırılacağı nəzərdə tutulur. Artıq bu istiqamətdə real fəaliyyətlər də icra olunmaqdadır. Belə ki, ƏƏSMN tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün aktiv məşğulluq proqramları çərçivəsində Laçın şəhəri və Laçının Zabux, Sus, Bəylik, Giləbird kəndləri, Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi, Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi, Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri, Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri, Kəlbəcər şəhəri, Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi,

Xankəndinin Kərkicahan qəsəbəsi, Qubadlının Mahruzlu, Zilanlı kəndləri, Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri, Ağdamın Xıdırlı, Kəngərli,Sarıcalı kəndləri, Xocavəndin Xocavənd kəndi üzrə həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər üçün peşə hazırlığı kursları təşkil edir. Peşə hazırlığı kurslarına adıçəkilən yaşayış məntəqələrinin sakinləri müraciət edərək tikinti, sənaye, kənd təsərrüfatı və xidmət sahələri üzrə kurslarda iştirak edə bilər.

Qeyd olunanlar dövlət tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işağaldan azad edilmiş ərazilərində əhalinin məşğulluğunun təmin olunması istiqamətində atılan məqsədyönlü addımlardır. Bununla belə, mütərəqqi ölkə təcrübələri araşdırılmış və işğaldan azad olunmuş ərazilərdə əhalinin peşə bacarıqlarının artırılması aşağıdakı istiqamətlər tədqiqat qrupu tərəfindən müəyyən edilmişdir:

1. Ehtiyacların qiymətləndirilməsi və planlaşdırma:
   - *Hərtərəfli tədqiqatın aparılması:* İşğaldan azad olunmuş ərazilərdəki iqtisadi potensialın, resursların və əhalinin təhsil səviyyəsinin hərtərəfli tədqiqinin aparılması.
   - *Uzunmüddətli strategiyanın formalaşdırılması:* Peşə təhsilinin inkişafı üçün uzunmüddətli strategiya hazırlamaq, təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi, təlim proqramlarının müasirləşdirilməsi və müəllim heyətinin ixtisasının artırılması kimi məsələləri əhatə etmək.
   - *Yerli icmaların cəlb olunması:* Peşə təhsili ilə bağlı qərarların qəbul edilməsi və icra olunmasında yerli icmaların fəal iştirakını təmin etmək.
2. Peşə təhsili və təlimlərin təşkili:
   - *Çevik təlim modellərinin tətbiqi:* Fərqli yaş qrupları və təhsil səviyyələri üçün çevik təlim modellərinin təşkil edilməsi (məsələn, axşam kursları, distant təhsil, qısamüddətli təlimlər və s.).
   - *Təcrübəyə əsaslanan təlim:* Nəzəri biliklərlə yanaşı, təcrübəyə əsaslanan təlimlərə üstünlük vermək, tələbələrin real iş şəraitində bacarıqlarını inkişaf etdirmələrinə imkan yaratmaq.

- *Təlim materiallarının hazırlanması:* İşğaldan azad olunmuş ərazilərin xüsusiyyətlərini nəzərə alaraq, təlim materiallarını və proqramlarını yerli şəraitə uyğunlaşdırmaq.

3. Təhsil müəssisələrinin inkişafı:

- *Müasir tədris avadanlıqları ilə təminat:* Peşə məktəblərini və kollecləri müasir tədris avadanlıqları və texnologiyaları ilə təchiz edilməsi;
- *Müəllim hazırlığı:* Peşə təhsili müəllimlərinin ixtisasartırma kurslarına göndərilməsini təmin etmək və onların motivasiyasını artırmaq üçün tədbirlər görülməsi;
- *Elmi-tədqiqat fəaliyyətinin dəstəklənməsi:* Peşə təhsili sahəsində elmi-tədqiqat fəaliyyətini dəstəkləmək və innovativ təlim metodlarının tətbiqini təşviq edilməsi.

4. Mentorluq və staj proqramları:

- *"Ustad-Şagird" modelinin tətbiq edilməsi:* Ənənəvi "ustad-şagird" modelindən istifadə edərək, təcrübəli sənətkarların gənc nəslə peşə sirlərini öyrətməsinə şərait yaradılması;
- *Staj keçənlər üçün motivasiya proqramları:* Staj keçənlərın motivasiyasını artırmaq üçün onlara mükafatlar, təqaüdlər və digər imtiyazların təklif edilməsi.

5. Sosial dəstək və karyera inkişafı:

- Psixoloji reabilitasiya: Müharibədən zərər çəkmiş şəxslərə psixoloji reabilitasiya xidmətləri göstərmək və onların cəmiyyətə adaptasiyasını asanlaşdırmaq.
- Karyera məsləhət xidmətləri: Peşə seçimi, CV hazırlanması, iş müsahibələrinə hazırlıq və digər karyera məsləhət xidmətləri təklif etmək.
- İşədüzəltmə xidmətləri: Məzunların iş tapmalarına kömək etmək üçün işədüzəltmə mərkəzləri yaratmaq və iş yarmarkaları təşkil etmək.

6. Maliyyə dəstəyi:

- Təhsil kreditləri və təqaüdlər: Peşə təhsili almaq istəyən şəxslərə təhsil kreditləri və təqaüdlər vermək.
- Vergi güzəştləri: Peşə təhsili sahəsində fəaliyyət göstərən müəssisələrə vergi güzəştləri tətbiq etmək.

- İşəgötürənlərə subsidiyalar: İşəgötürənləri peşə təhsili məzunlarını işə götürməyə təşviq etmək üçün subsidiyalar vermək.

Qeyd olunan istiqamətlər işğaldan azad edilmiş ərazilərə köçürülən əhalinin peşə bacarıqlarının formalaşması və inkişafı istiqamətində əhəmiyyətli rol oynaya və əhalinin məşğulluq imkanlarının artırılmasına töhfə verə bilər.

# III FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA BACARIQLARIN İNKİŞAFI VƏ İŞ YERLƏRİNİN YARADILMASI

## 3.1. Bacarıqların inkişafı proqramlarının formalaşdırılması

2020-ci ildə işğal altında olan torpaqların işğaldan azad edilməsindən sonra ölkədə bir sıra iqtisadi islahatların aparılması zəruri oldu. Bunun bariz nümunəsi kimi, artıq əvvəlki bölmələrdə qeyd edilən iqtisadi rayonların yeni bölgüsünün aparılması, azad edilmiş ərazilərdə ölkə başçısının xüsusi nümayəndələrinin təyin olunmasını göstərmək olar. Həyata keçirilən iqtisadi islahatlar bilavasitə dövlətin sosial siyasətinin sürətləndirilməsi, insan amilinin rolunun artırılması, əmək ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsi proseslərindən asılıdır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kadr hazırlığında əsas diqqət işçi qüvvəsinin kəmiyyətcə yox, keyfiyyətcə yüksəldilməsinə yönəldilməlidir. Çünki yeni iqtisadi reallıqların ən mühüm tələblərindən biri kadrların və mütəxəssislərin hazırlanması ilə müəssisənin nailiyyətlərinə uyğun istehsal vasitələrinin ardıcıl inkişafına nail olmaqdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında uyğunluq işçi qüvvəsinin ümumi təhsil səviyyəsi və ixtisasının artırılması baxımından ali və orta ixtisas təhsilli işçilərin sayının artması ilə yanaşı, peşə təhsilli yüksək keyfiyyətli işçi qüvvəsinin təkrar istehsalı deməkdir.

Əvvəlki fəsildə qeyd edildiyi kimi 2026-cı ilədək tələbat əsasında işğaldan azad edilmiş ərazilərə köçürüləcək əhalinin 12000 nəfərinin peşə hazırlığına, 3000 nəfərin qısamüddətli təlim proqramlarına cəlb edilməsi nəzərdə tutulur. Bu baxımdan bu bölmə köçürüləcək əhali üçün bacarıqların inkişafı proqramının formalaşdırılmasına istiqamətlənmişdir.

Bacarıqların inkişafı məşğulluq və özünüməşğulluq imkanlarını artırmaq üçün imkanları məhdud olan şəxslərə, xüsusilə qadınlara bacarıqların inkişaf etdirilməsi imkanları təqdim etməklə yanaşı, mikro, kiçik və orta müəssisələrin ümumi biznes fəaliyyətini yaxşılaşdırmaq və davamlı etmək üçün maliyyə, məsləhət və s. xidmətlərə çıxışını təmin edir. Xüsusilə peşəyə aid məsləklər üçün müvafiq ixtisaslı işçi qüvvəsi çatışmazlığı iqtisadiyyatın artım potensialını məhdudlaşdıran əsas amil kimi qəbul edilir. Buna görə də, təcrübəli və bacarıqlı işçi qüvvəsinə hər zaman ehtiyac vardır.

İşğaldan azad edilmiş ərazilərdə buna nail olmaq üçün xüsusilə təhsili və iqtisadi imkanları məhdud olanlar üçün bacarıqların inkişafı proqramının həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu bölmədə təqdim edilmiş bacarıqların inkişafı proqramı ölkənin işğaldan azad edilmiş ərazilərində fərdlərin məşğulluq imkanlarını və iqtisadi dayanıqlığını artırmaq məqsədi daşıyır. Proqram yerli iqtisadi inkişafı və sosial inteqrasiyanı dəstəkləmək məqsədilə praktiki bacarıqların və peşə hazırlığının təmin edilməsinə diqqət yetirir. Beynəlxalq təcrübə araşdırılaraq bacarıqların inkişafı proqramı aşağıdakı kimi təklif edilir:

**Bacarıqların artırılması proqramının məqsədləri:**

İqtisadi gücləndirmə: Məşğulluq imkanlarını artırmaq üçün proqrama cəlb ediləcək şəxslərin bazara çıxarıla bilən bacarıqlarla təchiz edilməsi.

Sosial inteqrasiya: Əməkdaşlığı və icma quruculuğunu təşviq edən təlim imkanları təqdim etməklə sosial birliyin gücləndirilməsi.

Yerli inkişaf: Məqsədli bacarıq təlimləri ilə yerli sənaye və xidmətlərin inkişafına dəstək verilməsi

**Hədəf auditoriyası:**

İşğaldan azad edilmiş ərazilərə köçürülən əhali

**Proqramın əsas komponentləri:**

1. Ehtiyacların qiymətləndirilməsi

- İşğaldan azad olunmuş ərazilərə köçürüləcək əhali üzrə bacarıq boşluqlarını müəyyən etmək və iqtisadi imkanları aşkara çıxarmaq üçün əhatəli qiymətləndirmənin aparılması.
- Proqramın yerli ehtiyacı qarşıladığına əmin olmaq üçün yerli icmaları, biznesləri və dövlət qurumlarının (ƏƏSMN, ETN, KOBİA) cəlb edilməsi.

2. Peşə təhsili proqramları

- Kənd təsərrüfatı və aqrobiznes: Müasir əkinçilik texnikaları, məhsulun idarə edilməsi və aqrobiznes bacarıqları üzrə təlim.
- Tikinti və infrastruktur: Yenidənqurma və tikinti, dülgərlik, santexnika və elektrik işləri üzrə bacarıqlar.
- İnformasiya texnologiyaları (İT): Kompüter savadlılığı, kodlaşdırma və

rəqəmsal marketinq daxil olmaqla, ibtidai və təkmil İT bacarıqları.

- Əl işləri və sənətkarlıq bacarıqları: Mədəni irsin qorunması və satılabilən məhsuların yaradılması üçün ənənəvi sənətkarlıq, tekstil və digər sənətkarlıq məhsulları üzrə təlimlər.

3. Sahibkarlıq və biznesin inkişafı

- Sahibkarlıq üzrə təlimlər: biznesin planlaşdırılması, maliyyə menecmenti, çarketinq və biznesə başlamağın hüquqi aspektləri üzrə təlimlər.
- Mikromaliyyələşmə və qrantlar: Kiçik biznesə başlamağı dəstəkləmək üçün mikro kreditlərə və kiçik qrantlara çıxışın təmin edilməsi.
- Mentorluq proqramları: Proqram çərçivəsində iştirakçıların biznesin inkişafının ilkin mərhələlərində təcrübəli mentorlarla əlaqələndirilməsi.

4. Yumşaq bacarıqlar (soft skills) və şəxsi inkişaf

- Ünsiyyət bacarıqları: Effektiv ünsiyyət, danışıqlar və münaqişələrin həlli üzrə təlimlərin keçirilməsi.
- Liderlik və komanda işi: Liderliyin inkişafı, komanda işi və icmanın təşkili üzrə seminarların verilməsi
- Maliyyə savadlılığı: Fərdlərə şəxsi maliyyələrini idarə etməyə və iqtisadi prinsipləri başa düşməyə kömək etmək üçün əsas maliyyə savadlılığı kurslarının təşkil edilməsi.

**İcra planı**

Mərhələ 1: Planlaşdırma və Hazırlıq (1-3 ay)

- Ehtiyacların qiymətləndirilməsi və maraqlı tərəflərlə məsləhətləşmələrin aparılması.
- Kurikulum və təlim materiallarının hazırlanması.
- Yerli təlimçilərin və heyətin işə götürülməsi.

Mərhələ 2: Pilot proqramlar (4-6 ay)

- Seçilmiş yaşayış məntəqələrində pilot təlim proqramlarına başlanılması.
- Rəy toplamaq və lazımi düzəlişləri etmək üçünpilot proqramların monitorinq və qiymətləndirilməsinin aparılması.

Mərhələ 3: Genişləndirmə və ölçmə (7-24 ay)

- Pilot nəticələr əsasında təlim proqramlarının digər yaşayış məntəqələri üzrə genişləndirilməsi.
- Lazımi alət və resurslarla təchiz olunmuş tədris mərkəzlərinin yaradılması.
- Proqramın effektivliyini və davamlılığını təmin etmək üçün davamlı monitorinq və qiymətləndirmənin həyata keçirilməsi.

**Monitorinq və qiymətləndirmə**

- İlkin Sorğular: Proqramın həyata keçirilməsindən əvvəl ilkin məlumatları yaratmaq üçün sorğuların keçirilməsi.
- Davamlı monitorinqin aparılması: sorğular, müsahibələr və fokus qruplar, vasitəsilə proqram iştirakçılarının tərəqqisini və proqramın təsirinin izlənilməsi.
- Təsirin qiymətləndirməsi: Məşğulluq nisbətləri və biznesə başlama kimi nəticələri ölçmək üçün hər bir mərhələnin sonunda təsir qiymətləndirmələrinin aparılması.

Təklif edilən proqram Azərbaycanda post-münaqişə əraziləri üçün bacarıqların inkişafı proqramı fərdlərə əsas təlim və dəstək vermək, iqtisadi dayanıqlığı və sosial inteqrasiyanı təşviq etmək məqsədi daşıyır. Münaqişədən sonra əhalinin xüsusi ehtiyaclarını qarşılamaqla və yerli və beynəlxalq tərəfdaşlıqdan istifadə etməklə bu proqram Azərbaycanın post-münaqişə regionlarının davamlı inkişafına əhəmiyyətli töhfə verə bilər.

## 3.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məşğulluğun təmin olunmasında peşə hazırlığının rolu

Peşə təhsili fərdlərə müəyyən bir peşə və ya sektor üçün tələb olunan bilik, bacarıq və vərdişləri əldə etməyə imkan verən təhsil növüdür. İqtisadi inkişafın və işsizliklə mübarizənin mühüm vasitəsi olan peşə təhsili işçi qüvvəsinin tələblərinə cavab verdiyinə və əmək bazarının dinamikasına uyğun formalaşdığına görə getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu bölmədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında peşə təhsilinin məşğulluğa təsirləri və bu təhsil növünün işsizliklə mübarizədə hansı rol oynadığı müzakirə olunur.

Peşə təhsili müxtəlif iqtisadi sahələrdə ehtiyac duyulan texniki və praktiki biliklər qazandıraraq fərdləri iş həyatına hazırlayan təhsil müddətlərini əhatə edir. Peşə təhsilinin əsas məqsədi fərdlərinəmək bazarında istifadə edəbiləcəkləri bacarıqlar əldə etmələrini təmin etmək və bazarın tələblərinə çevik və effektiv şəkildə cavab verəbilməkdir.

Ümumiyyətlə baxdıqda peşə təhsilinin rolu təkcə ayrı-ayrı ölkələrdə deyil, qlobal miqyasda artmaqdadır. Təsadüfi deyil ki, Dünya İqtisadi Forumu "İş yerlərinin gələcəyi 2023" hesabatında 2027-ciilədək mütləq ifadədə artan iş yerlərinin ən çoxunun peşə təhsili tələb edən sahələrdə olduğunu göstərmişdir (WEF, Future of Jobs Survey 2023). Belə ki, kənd təsərrüfatı avadanlıqlarının operatorları, yük maşını və avtobus sürücüləri, mexaniklər və maşın təmirçiləri kimi peşələr üzrə milyonlarla iş yeri yaradılması proqnozlaşdırılır ki, bu peşələrə sahib olmaq peşə təhsili müəssisələrində mümkündür.

Peşə təhsilində Almaniya, İsveçrə, Cənubi Koreya kimi uğurlu olan bir sıra ölkələr vardır ki, belə ölkələrin təcrübələrindən yararlanmaqla həm ölkə miqyasında həm də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əmək bazarının tələblərini nəzərə alan işçi qüvvəsinin hazırlanmasını təmin etmək olar.

Almaniyada tətbiq olunan dual təhsil sistemi şagirdlərin həm təhsil müəssisəsində, həm də, iş yerlərində təhsil almasını təmin edir. Bu sistem şagirdlərin nəzəri biliklərini praktiki bacarıqlarla möhkəmləndirməyə imkan verir və əmək bazarında yüksək tələbat olan ixtisaslı işçi qüvvəsi hazırlayır. İsveçrədə isə peşə təhsili tələbələrə müxtəlif sektorlardakı iş yerlərində təcrübə keçmək və iş dünyasının ehtiyaclarına uyğun bacarıqlar əldə etmək imkanı verir. Bu model İsveçrə iqtisadiyyatının yüksək məhsuldarlığa və aşağı işsizlik səviyyəsinə nail olmasına töhfə verməkdə əhəmiyyətli rol oynamışdır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, xüsusilə bu iqtisadi rayonların işğaldan azad edilmiş əraziləri böyük iqtisadi və resurs potensialı daşıyan bölgələridir. Burada məşğulluğun təmin edilməsi və iqtisadi inkişafın dəstəklənməsi üçün peşə təhsilinin rolu danılmazdır.

Peşə təhsili müəssisələrinin məzunlarının işlə təmin olunması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üçün xüsusilə aktualdır, çünki rayonda iş yerlərinin təmin edilməsi və mövcud iş yerlərinin yaradılması baxımından ərazi əmək bazarlarının diferensasiyası mövcuddur (vakansiyalar məşğulluq xidməti orqanları). Ən çətin vəziyyət iqtisadi rayonun qeyri-sənaye rayonlarında və monostruktur iqtisadiyyatı olan ayrı-ayrı şəhərlərdə müşahidə olunur, burada gərginlik göstəriciləri ən yüksəkdir.

Peşə təcrübəsi əldə etmək məqsədilə təhsil müəssisələrinin məzunlarının təcrübə keçmələrinin təşkili proqramı həyata keçirilir. İşəgötürənin məzunun əmək haqqının ödənilməsi ilə bağlı xərcləri Azərbaycan Respublikasında müəyyən edilmiş minimum əmək haqqı (350 azn) əsasında regional əmsal və dövlət büdcədənkənar fondlarına sığorta haqları, habelə mentorluq üçün ödənişlər (yox) əsasında ödənilir.

Təcrübə və iş bacarıqlarının əldə edilməsi, dövlət büdcədən əmək haqqına əlavə olaraq 127 ilə 255 azn arasında maddi dəstək almaq hüququ olan 14 yaşdan 18 yaşa qədər olan yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti məşğulluğun təşkili tədbirləri ilə asanlaşdırılır. İşəgötürənin əmək haqqının ödənilməsi ilə bağlı xərclərinin kompensasiyası 100 azn və kompensasiya edilmiş əmək haqqı fondu üçün dövlət büdcədənkənar fondlarına sığorta haqları məbləğində həyata keçirilir.

“2021-2023-cü illər üçün məşğulluğun təşviqi” proqramı çərçivəsində Münasib iş tapmaqda köməklik göstərilməsi üçün məşğulluq xidmətinə müraciət edən 25 yaşınadək peşə təhsili müəssisələrinin məzunlarına regional əmsalı nəzərə alınmaqla minimum işsizlik müavinətinin iki misli miqdarında maddi yardım göstərilir.

Peşə təhsili müəssisələrinin 25 yaşınadək məzunları üçün müvəqqəti iş yerləri təşkil edən işəgötürənlər üçün muxtar rayonda müəyyən edilmiş minimum əmək haqqı məbləğində işçilərin əməyinin ödənilməsi xərcləri və dövlət büdcəsindənkənar fondlara sığorta haqları üçün kompensasiya verilir.

Həm məzun (peşəkar fəaliyyət üçün zəruri olan təcrübə əldə etmək), həm də işəgötürən (minimal xərclə mütəxəssis əldə etmək imkanı) üçün belə qarşılıqlı faydalı əməkdaşlıq gənclərin əmək bazarında gərginliyi azaldacaq. Evdə əməyin inkişafı çərçivəsində material və xammal xərclərinin ödənilməsi üçün regional əmsalı nəzərə alınmaqla işsizlik müavinətinin maksimum məbləğinin on iki mislindən çox olmayan

məbləğdə subsidiyaların verilməsi nəzərdə tutulur. İşsiz vətəndaşların işlə təmin olunması üçün sahibkarlıq fəaliyyətinin təşkili və əlavə iş yerlərinin yaradılması regional əmsalı nəzərə alınmaqla işsizlik müavinətinin maksimum məbləğinin on iki misli miqdarında subsidiya alınmasını nəzərdə tutur.

Mərkəzlərin infrastrukturu şəbəkə qarşılıqlı əlaqəsi əsasında qurulmuşdur və vahid mərkəzli təhsil müəssisələrinin bütün tələbələrinin təhsillərini yarımçıq qoymadan vahid mərkəz əsasında təcrübə keçmələrini təşkil etməyə imkan verir. Tələbələr yüksək texnoloji avadanlıqlar üzrə praktiki təlim keçirlər ki, bu da kursu bitirdikdən sonra onlara müvafiq dərəcələrin verilməsinə imkan verir.

Eyni zamanda, resurs mərkəzləri şəbəkəsi klaster strukturuna malikdir, məsələn, Ağdam rayonu maşınqayırma və metal emalı sahəsində, Cəbrayıl rayonu - informasiya və kompüter texnologiyaları sahəsində mütəxəssislərin hazırlanması üçün mərkəz kimi təyin edilmişdir.

Yerli büdcələr hesabına mütəxəssislərin hazırlanması üçün təhsil müəssisələri ilə respublikanın təsis qurumlarının dövlət orqanları arasında məqsədyönlü müqavilələrin bağlanması təcrübəsi geniş vüsət almışdır. Bundan əlavə, regional təhsil siyasəti vasitəsilə mütəxəssis hazırlığının həcminin və strukturunun iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması üçün əlavə tədbirlərə ehtiyac var. Qeyd edək ki, Azərbaycanda özünün geosiyasi mövqeyinin və tarixi inkişafının xüsusiyyətlərinə görə əksər universitetlər regional universitetlər kimi inkişaf edir və buna görə də regionun inkişafı universitet potensialına əsaslanırdı və etməkdə davam edir. Bütün regional inkişaf proqramlarında universitetlərin gələcək inkişafı maraqları böyük ölçüdə nəzərə alınır.

Böyük ölçüdə regional cəmiyyətin intellektual potensialını formalaşdıran universitetlər vətəndaş cəmiyyətinin yüksəliş nöqtəsidir. Universitet komandaları müxtəlif sahələrdə yüksək ixtisaslı mütəxəssisləri cəmləşdirir: təbiət, texniki, sosial və humanitar elmlər. Pedaqoji heyətin və tələbələrin əksəriyyəti müasir informasiya texnologiyalarını mükəmməl bilir, internet vasitəsilə milli və dünya informasiya resurslarına çıxış imkanına malikdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında demək olar ki, heç bir mühüm ictimai-siyasi hadisə universitetin professor-müəllim və

tələbələrinin fəal iştirakı olmadan baş vermir. Son illərdə ölkənin iqtisadi və siyasi həyatında baş verən əsaslı dəyişikliklər peşə təhsili müəssisələrini fəaliyyətlərinin regional aspekti baxımından fərqli vəziyyətə saldı.

Təhsilin əsas vəzifəsi məzunlarda onlara məşğulluqda rəqabət üstünlüyü verəcək mühüm peşə qabiliyyət və bacarıqlarını inkişaf etdirməkdir. Bununla belə, müasir təhsil sistemində məzunların səriştəsinin müəyyən bir təşkilatda qəbul edilmiş standartlara, norma və qaydalara nə dərəcədə uyğun olması barədə məlumat yoxdur. Çətinlik ondadır ki, işəgötürənlər müəyyən edilmiş səlahiyyətlərə malik peşəkar standartları yaratmağa hazır deyillər ki, bu da regionda konkret sənaye üzrə mütəxəssislərin hazırlanması üçün başlanğıc model kimi istifadə oluna bilər. Bir çox regional müəssisələrin problemi ondan ibarətdir ki, onların heç də hamısı gələcək mütəxəssislərin hazırlanmasında iştirak etmək zərurətini hələ tam dərk etməmişdir. Asılı davranışın aradan qaldırılması yalnız birgə səylərlə mümkündür. Təhsil müəssisələri bütün səviyyələrdə təhsil müəssisələrinin məzunları üçün tələbləri müəyyən edən və əmək sferası ilə peşə təhsili sferasının qarşılıqlı əlaqəsini tənzimləyən peşə standartları sisteminin formalaşdırılması üçün işəgötürənlərin cəlb edilməsinə rəhbərlik etməlidirlər.

Beləliklə, deyə bilərik ki, işəgötürənin əslində universitetlərə bu fəaliyyət sahəsində prioritet hesab etdiyi səriştələr üzrə mütəxəssislər hazırlamaq üçün sifariş vermək imkanı var və məzun hazırlığı səviyyəsinə belə tələblərin modelləşdirilməsi funksiyasını öz üzərinə götürə bilər. müəssisə üçün arzuolunan olmalıdır. Eyni zamanda, universitet peşə hazırlığının keyfiyyətinə və məzmununa tələblərə malik olmaqla, əmək bazarının və təhsil xidmətlərinin regional istehlakçılarının real ehtiyaclarına diqqət yetirməklə, konkret ixtisas üzrə səriştəli mütəxəssis hazırlayır və məzunlar üçün rəqabət üstünlükləri təmin edir.

Qeyd edək ki, bəzi müəssisələrdə kadrların inkişafı sahəsində tədris mərkəzləri yaradılmışdır ki, onların funksiyalarına müəssisənin müxtəlif strukturlarından kadrların hazırlanması üçün sifarişlərin toplanması, bu sərəncamlara və təsdiq edilmiş büdcəyə uyğun olaraq tədris planının formalaşdırılması, kənar təşkilatlarda təlim, seminar və treninqlərin texniki təşkili üçün sifarişlər. Bu strukturların əksəriyyətinin

təlim tədbirləri üçün öz saytı yoxdur; onlar hər bir tədbir üçün ayrıca icarəyə verilir. Tədris mərkəzlərinin işçilərinin özləri şirkətlərin mərkəzi strukturlarında maksimum dörd-beş nəfərdən ibarətdir, bu isə o deməkdir ki, tədris mərkəzlərinin əksəriyyətinin öz daimi müəllim heyəti yoxdur. Bəzən şirkət menecerləri müəllim kimi çıxış edirlər, xüsusən də korporativ mədəniyyətin ötürülməsi ilə bağlı seminarlar təşkil edildikdə, lakin onlar ilk növbədə funksional işçilər, yalnız bundan sonra müəllimlərdir. Yüksək maaşlı və az iş yükü olan kadrlarda yüksək ixtisaslı mütəxəssislərin olması hətta yüksək gəlirli şirkətlər üçün də iqtisadi cəhətdən sərfəli deyil.

Bununla birlikdə, müəssisənin xüsusiyyətlərini və qismən korporativ mədəniyyətini nəzərə alan xüsusi hazırlanmış təlim proqramlarına uyğun olaraq klassik universitetdə gənc mütəxəssislərin məqsədyönlü hazırlanması sistemi üstünlüklərə malikdir, çünki mütəxəssisin ümumi hazırlığı daralmamışdır. bir müəssisənin ehtiyaclarının səviyyəsinə. Universitetlər dövlət təhsil proqramları çərçivəsində tədris prosesində çevikliyi təmin edir, modul kurikulumları, dövrləri, proqramları və tədris prosesinin müvafiq metodiki və maddi təminatını faktiki olaraq yenidən istiqamətləndirir və inkişaf etdirir.

Eyni zamanda, “bazar yönümlü” universitetin professor-müəllim heyətinin ixtisası kifayət qədər yüksək səviyyədə olmalı və həm sertifikatlar, həm də təhsilin innovativ komponentinin tətbiqi təcrübəsi ilə təsdiqlənməlidir və bir sıra parametrlərdə əhəmiyyətli dərəcədə olmalıdır.

Bu laboratoriyalarda həm universitet məzunları, həm də tələbələr işləyə bilər və bununla da müasir ali təhsil sistemi üçün xarakterik olan boşluğu doldura bilər, yəni. əldə edilmiş biliklərin praktiki bacarıqlardan təcrid edilməsi.

Yuxarıda təsvir olunan sistem yeni deyil və dünyada dörd mindən çox birgə inkişaf var: bunlar gələcək iş üçün fundamental elmi əsaslar üzərində xüsusi təlim proqramlarıdır, bu şirkətlərdə məzunların “incə tənzimlənməsi”dir, bu mütəxəssislərin yenidən hazırlanması, bunlar korporativ universitetlərdir. Bir qayda olaraq, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bazarda hər biri bazar tələbinin müəyyən hissəsini ödəyən oxşar xidmətlər təklif edən kifayət qədər çox sayda dövlət və

alternativ təhsil müəssisələri var. Təhsil xidmətlərinin istehlakçılarının seçim etmək imkanı var ki, bu da bazar iştirakçıları arasında rəqabəti təmin edir.

Təhsil xidmətlərinin keyfiyyətinin və universitetlərin reytinqinin obyektiv qiymətləndirilməsini formalaşdırmaq üçün işəgötürənlər səriştəli mütəxəssislərin hazırlanması üçün universitetlərin lazımi ümumi şəraitinə (kadr, maliyyə, informasiya, infrastruktur) nəzarət etməli və diaqnostika aparmalıdırlar. Universitetlər rəy əsasında, əsas işəgötürənlərin sorğuları və anketləri vasitəsilə mütəxəssislərin - universitetin məzunlarının təşkilati və idarəetmə fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı məlumat bazaları yaratmalıdır ki, bu da təhsilin keyfiyyətinin yüksəldilməsi üçün ehtiyatları müəyyən etsin.

Yuxarıda deyilənləri ümumiləşdirərək deyə bilərik ki, hər bir region konkret sosial məqsədlərə nail olmaq üçün öz strukturları, maliyyə və idarəetmə sistemləri ilə öz təhsil sistemini yaradır və buna uyğun olaraq ehtiyac duyduğu təhsil siyasətini qurur.

### 3.3. Qarabağ və Şərqi Zəngəzurda yeni iş yerlərinin yaradılması istiqamətində təkliflərin verilməsi

Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı, Azərbaycan Respublikasının strateji əhəmiyyətli prioritetlərindən biridir. İşğaldan azad olunmuş bu ərazilərin yenidən qurulması, iqtisadi və sosial həyatın bərpası, həmçinin bölgənin inkişaf etdirilməsi dövlətin əsas hədəflərindən biridir. Bu dissertasiyada Qarabağ və Şərqi Zəngəzurda yeni iş yerlərinin yaradılması istiqamətində konkret təkliflər irəli sürülmüşdür. Təkliflər kənd təsərrüfatı, turizm, kiçik və orta biznesin dəstəklənməsi, təhsil, səhiyyə, kommunal xidmətlər, nəqliyyat və rabitə sahələrini əhatə edir.

Kənd təsərrüfatı üzrə konkret təkliflər:

- Müasir texnologiyaların tətbiqi: Damcılı suvarma sistemləri, müasir kənd təsərrüfatı avadanlıqları və yerli texnologiyaların tətbiqi üçün dövlət dəstəyi artırılmalıdır. Fermerlərə bu texnologiyaların istifadəsi barədə təlimlər keçirilməli və texniki dəstək göstərilməlidir.

- Fermerlərə Güzəştli Kreditlər: Fermerlərə müasir avadanlıqların alınması və təsərrüfatların genişləndirilməsi üçün güzəştli kreditlər təklif edilməlidir. Bu məqsədlə xüsusi kredit proqramları hazırlanmalıdır.
- Kənd Təsərrüfatı Məhsullarının Emalı: Kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılması üçün investisiyalar cəlb edilməli və bu müəssisələrə vergi güzəştləri tətbiq olunmalıdır. Güzəştlər tətbiq olunarsa emal müəssisəsində 50-100 yeni iş yerinin açılması mümkündür.

Turizm sektoru üzrə konkret təkliflər:

- Tarixi və mədəni irsin bərpası: Tarixi abidələrin yenidən qurulması və müasir turizm obyektlərinin yaradılması vacibdir. Məsələn tarixi qalaların, məscidlərin, kilsələrin və digər mədəniyyət obyektlərinin bərpası turistlərin marağını cəlb edəcək. Bundan əlavə, mədəniyyət festivallarının və tədbirlərin təşkili də turizmin inkişafına kömək edə bilər. Bu tədbirlər vasitəsilə hər il əlavə 100 mindən çox turistin bölgəyə cəlb edilməsi mümkündür.
- Ekoturizm və mədəni turizm marşrutlarının yaradılması: Qarabağ və Şərqi Zəngəzurda yürüyüş, dağ turizmi və digər ekoturizm fəaliyyətləri üçün xüsusi marşrutlar hazırlanmalıdır. Bu marşrutlar vasitəsilə turistlərə bölgənin təbii və mədəni zənginliklərini tanımaq imkanı verilməlidir. Hər yeni turizm marşrutunun yaradılması ilə 20-30 yeni iş yerinin açılması mümkündür.
- Turizm infrastrukturunun təkmilləşdirilməsi: Yeni otellər, istirahət mərkəzləri və turizm obyektləri tikilməli, mövcud infrastruktura yenidən baxılmalıdır. Hər yeni turizm obyektinin yaradılması ilə 10-15 yeni iş yerinin açılması mümkündür.

Kiçik və Orta Biznesin Dəstəklənməsi üzrə konkret təkliflər :

- Biznes inkişaf proqramları: Kiçik və orta biznesin inkişafı üçün xüsusi dövlət proqramları hazırlanmalıdır. Bu proqramlar vasitəsilə yeni bizneslərin yaradılması və mövcud bizneslərin genişləndirilməsi təmin edilə bilər. Fermerlərə və sahibkarlara güzəştli kreditlərin verilməsi, vergi güzəştlərinin tətbiqi və məsləhət xidmətlərinin göstərilməsi bu istiqamətdə kritik dəyişikliklərə səbəb olacaqdır.

- Startapların dəstəklənməsi: Startaplara maliyyə dəstəyi və mentorluq xidmətləri göstərilməlidir. Məsələn, texnologiya parklarında və biznes inkubatorlarında startaplara maliyyə və texniki dəstək göstərilməsi onların inkişafına kömək edəcək. Hər bir startapın dəstəklənməsi ilə 5-10 yeni iş yerinin açılması mümkündür.
- Biznes təlimləri: Sahibkarların və yeni biznes qurmaq istəyən şəxslərin bilik və bacarıqlarının artırılması üçün biznes təlimləri təşkil edilməlidir. Bu təlimlər vasitəsilə onların bazar haqqında məlumatları və idarəetmə bacarıqları artırılmalıdır.

Təhsilin keyfiyyətinin artırılması üzrə konkret təkliflər:

- Məktəb infrastrukturunun yenidən qurulması: Qarabağ və Şərqi Zəngəzurda məktəblərin fiziki infrastrukturu yenidən qurulmalı və müasir təhsil standartlarına uyğunlaşdırılmalıdır. Məsələn, laboratoriya və kompüter siniflərinin təchizatı təkmilləşdirilməlidir. Hər bir məktəbin infrastrukturunun təkmilləşdirilməsi ilə 10-15 yeni iş yerinin yaradılması mümkündür.
- Müəllim kadrlarının təlimi: Təhsil işçilərinin təlimi və inkişafı çox vacibdir. Müəllimlərə müasir təhsil metodologiyaları və texnologiyaları barədə təlimlər keçirilməli və pedaqoji universitetlərdə müəllimlərin peşə təlimi proqramları təşkil edilməlidir. Bu təlimlər vasitəsilə müəllimlərin peşələrində irəliləməsi təmin ediləcək.

Səhiyyə sahəsi üzrə təkliflər:

- Təcili Tibbi Yardım Mərkəzlərinin İnkişafı: Əlverişli yerlərdə yeni təcili tibbi yardım mərkəzlərinin açılması və mövcud olanların təkmilləşdirilməsi ilə səhiyyə xidmətlərinin təminatı gücləndirilməlidir.
- Tibbi avadanlıqların əlavə olunması: Tibbi avadanlıqların yenilənməsi və genişləndirilməsi, bölgə əhalisinin tibbi xidmətlərdən daha yaxşı istifadə etməsinə kömək edəcəkdir. Əlavə olaraq, yerli istehsal məhsulu olan tibb cihazlarına üstünlük verilməlidir.

Kommunal xidmətlər sahəsində təkliflər:

- Qaz, su və elektrik təhcizatı üzrə göstərilən xidmətlərdə limitlər aradan qaldırılmalıdır.
- Yeni təcrübələrin tətbiqi üçün bütün kommunal xidmətlərdə tam avtomatlaşdırılmış sayğaclardan istifadə olunmalıdır.
- İnfrastrukturun yeni yaradıldığını nəzərə alaraq ödənişlərin edilməsində çətinlik olmaması üçün mobil tətbiqlər maksimum sadə tutulmalı və tətbiqlərdəki boşluqlar aradan qaldırılmalıdır.

Nəqliyyat və rabitə sektoru üzrə təkliflər:

- **Nəqliyyat infrastrukturunun yenilənməsi:** Yolların yenilənməsi və avtomobil əsaslı nəqliyyatın təkmilləşdirilməsi, bölgədə əlaqələrin bərpa edilməsinə kömək edəcəkdir. Əlavə olaraq, yeyintinin aradan qaldırılması üçün nəzarət komitəsi təşkil olunmalı və həftəlik hesabatlar Nazirlər Kabinetinə təqdim olunmalıdır.
- Rabitə infrastrukturunun inkişafı: Rabitə infrastrukturunun inkişafı və sürətli internetin təqdim edilməsi, iş sahələrinin və yaşayış sahələrinin modernləşdirilməsinə yardım edəcəkdir. Bütün ərazilərə ucuz fiber-optik internet paylanılmalıdır. İnternet xəttlərinin çəkilişi zamanı yeraltı qovşaqların istifadəsinə üstünlük verilməlidir. Belə olduğu təqdirdə şəhər və kəndlərin vizual görüntüsü yaxşılaşacaqdır.

Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı üçün çoxşaxəli yanaşma tələb olunur. Yuxarıda təqdim olunan təkliflər, bölgənin iqtisadi və sosial inkişafına təkan verəcək, həmçinin yeni iş yerlərinin yaradılmasını təmin edəcəkdir. Bu istiqamətdə atılacaq addımlar, Qarabağ və Şərqi Zəngəzurun gələcəyini parlaq edəcək və bölgənin yenidən dirçəldilməsinə mühüm töhfə verəcəkdir.

Bu təkliflərin həyata keçirilməsi ilə bölgənin həm iqtisadi, həm də sosial inkişafı təmin ediləcək və əhalinin rifah səviyyəsi yüksəldiləcəkdir. Bu da Qarabağ və Şərqi Zəngəzurun yenidən Azərbaycanın inkişaf etmiş və firavan bölgələrindən biri olmasına yardım edəcəkdir.

# NƏTİCƏ

Dissertasiya işində qarşıya qoyulmuş məqsədə müvafiq olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına 2026-cı ilədək köçürüləcək əhalinin bacarıqlarının inkişafı və yeni iş yerlərinin yaradılması məsələləri tədqiq edilmişdir. Tədqiqat işində gəlinən əsas nəticələr Böyük Qayıdışa dair I Dövlət Proqramı, eləcə də rəsmi informasiya mənbələrinə tədqiq edilməsinə əsaslanır. Bütövlükdə tədqiqat işinin yerinə yetirilməsi aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əsasən 3 istiqamətdə aktiv işçi qüvvəsi tələb edən sahələr var. Bunlar, təhsil, səhiyyə, kommunal, nəqliyyat və rabitə və s. kimi dövlət sektoru, tikinti və infrastruktur təminatı ilə bağlı fəaliyyət göstərən sektorların və məhsul və xidmət istehsalı ilə məşğul özəl sektorun işçi qüvvəsinə tələbidir.
2. Hər iki iqtisadi rayon üzrə 2026-cı ilədək köçürüləcək 140 min əhaliyə müvafiq olaraq, Qarabağ iqtisadi rayonunda 80 nəfər həkim, 279 nəfər tibb işçisi, həmçinin məktəbəqədər təhsildə 128 nəfər pedoqoji heyət, əyani ümumi təhsildə isə 915 nəfər müəllim tələb olunacağı müəyyən edilmişdir. Analoji təhlil Şərqi Zəngəzur iqtisadi rayonunda 2026-cı ilədək 38 nəfər həkimə, 125 nəfər orta tibb işçisinə, məktəbəqədər təhsildə 56 nəfər pedoqoji işçiyə, əyani ümumi təhsildə isə 977 nəfər müəllimə tələb yaranacağı nəticəsinə gəlməyə əsas vermişdir.
3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına 2026-cı ilədək köçürüləcək əhalinin bacarıqlarının artırılması istiqamətləri müəyyən edilmiş, eyni zamanda bacarıqların artırılması üzrə konkret proqram təklif edilmişdir.
4. Dissertasiya işində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni iş yaerlərinn yaradılması istiqamətində kənd təsərrüfatı, turizm, kiçik və orta biznesin dəstəklənməsi, təhsil, səhiyyə, kommunal xidmətlər, nəqliyyat və rabitə sahələrini əhatə edən konkret təkliflər verilmişdir.

## İstifadə edilmiş ədəbiyyatlar


1. Andreas, P. (2006). Blue Helmets and Black Markets: The Business of Survival in the Siege of Sarajevo. Cornell University Press.
2. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 07 iyul 2021-ci ildə təsdiq edilmişdir.
3. Beasley, K.W. (2006). Job Creation in Postconflict Societies . Silver Spring, MD: U.S. Agency for International Development. http://digitalcommons.ilr.cornell.edu/key_workplace/274/
4. Black, R., & Koser, K. (Eds.). (1999). The End of the Refugee Cycle? Refugee Repatriation and Reconstruction. Berghahn Books.
5. Clark, P. (2010). The Gacaca Courts, Post-Genocide Justice and Reconciliation in Rwanda: Justice without Lawyers. Cambridge University Press.
6. https://azertag.az/xeber/isgaldan_azad_edilmis_erazilerde_ilk_emek_yarmarkasi_kechirilib___yenilenib_video-2826237
7. https://ikisahil.az/post/242069-qarabagin-iqtisadi-potensiali-ve-inkishaf-perspektivleri
8. https://sosial.gov.az/ - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
9. https://sosial.gov.az/media/xeberler/isgaldan-azad-edilmis-erazilerimizin-sakinleri-ucun-pese-hazirligi-kurslari-teskil-olunur
10. https://stat.gov.az/ - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.
11. Karen Jacobsen. "The Forgotten Solution: Local Integration for Refugees in Developing Countries." UNHCR, 2001.
12. Long, K. (2004). Livelihoods approaches to economic recovery in post-conflict situations: A review of current practice. Overseas Development Institute.
13. Monsutti, A. (2008). War and migration: Social networks and economic strategies of the Hazaras of Afghanistan. Routledge.
14. Muggah, R. (2008). No refuge: The crisis of refugee militarization in Africa. Zed Books
15. Peeters, P., Cunningham, W., Acharya G, and Adams, V. A.(2009). "Sustainable Livelihood Opportunities in a PostConflict Setting. Youth Employment in Sierra Leone." Washington, DC: World Bank.
16. Riddell, B. 2005. "Sierra Leone: Urban-Elite Bias, Atrocity and Debt." Review of African Political Economy 103: 115-133.
17. Rwanda - Systematic Country Diagnostic (English). Washington, D.C. : World Bank Group.

http://documents.worldbank.org/curated/en/219651563298568286/Rwanda-Systematic-Country-Diagnostic
18. Sender, J., C. Christopher and C. Oya (2005). "Unequal prospects: disparities in the quanity and quality of labour supply in sub-Saharan Africa." World Bank Discussion Papers. Washington, DC: World Bank.
19. Simon, A. (2003). "Ex-Combatants' Re-integration: Key Issues for Policy Makers and Practitioners." Based on lessons from Sierra Leone. London: DFID.
20. Sriram, C. L., & King, J. C. (2003). Post-conflict reconstruction: A call for a development perspective. Development in Practice, 13(2-3), 265-279.
21. Stewart, F. (2015). Employment in Conflict and Post-conflict Situation. UNDP Human Development Report Office.
22. Stewart, F., and Valpy Fitzgerald and Associates. (2001). War and Underdevelopment: The Economic and Social Consequences of Conflict. Oxford: Oxford University Press.
23. Stewart, F., ed. (2008). Horizontal Inequalities and Conflict: Understanding Group Violence in Multiethnic Societies. London: Palgrave.
24. Summerfield, D. (1999). A critique of seven assumptions behind psychological trauma programmes in war-affected areas. Social Science & Medicine, 48(10), 1449-1462.
25. Thompson, J.L.P. (1989). "Deprivation and political violence in Northern Ireland 1922-1985: a time series analysis." Journal of Conflict Resolution 33(4): 676-699.
26. Toole, M. J., & Waldman, R. J. (1997). The public health aspects of complex emergencies and refugee situations. Annual Review of Public Health, 18(1), 283-312.
27. UN-Habitat. (2005). Land, tenure and property administration in post-conflict situations: A review of issues and good practices. UN-Habitat.
28. UNHCR Global Trends Report 2018. https://www.unhcr.org/statistics/unhcrstats/5d08d7ee7/unhcr-global-trends-2018.html
29. United Nations Office for West Africa. (2005). "Youth Unemployment and Regional Insecurity in West Africa." Dakar.
30. United Nations (2009). "Post-conflict employment, income generation and reintegration." New York.
31. Urdal, H. (2006). "A clash of generations? Youth bulges and political violence." International Studies Quarterly 50(3): 607-630.
32. USAID. (1994). Uganda Demobilization and Reintegration Project. Washington, DC.
33. World Economic Forum (2023). Future of Jobs Survey 2023.

34.World Bank (2019). "Colombia - Jobs Diagnostic"